www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 avqust 2024-cü il Çərşənbə axşamı № 137 (8510) Qiymıəti 60 qəpik

**Xəbər**

**XİN-dən xəbərdarlıq - bu ölkələrə getməyin!**

yazısı səh.5-də

**Gündəm**

**Seçkiqabağı təbliğat kampaniyası başlayır - reklam şərtləri, qiymətlər**



Bu media qurumlarında ödənişli əsaslarla təşviqat həyata keçirilə bilər

yazısı səh.4-də

# Krìtìk tarìx: 12 avqust, ya... - yenì müharìbənìn "ayaq səslərì"

Regionda dəhşətli hadisələrin proqnozu verilir; İran-İsrail qarşıdurmasının ağır fəsadları ola bilər; politoloqlar İranın reallıqlarla barışmağa məhkum olduğunu deyir



yazısı səh.9-da

**COP29-a görə bu qurumlarda iş rejimi dəyişəcək**

yazısı səh.3-də

**"F-16"lar Ukraynada: Krım körpüsü bu yay dağıdılsa... - sülh şərtləri qəlizləşir**

yazısı səh.8-də

**Fond və xammal bazarları çökür - səbəb**

yazısı səh.10-da

**Qərbin sanksiyaları "Roskosmos"a 180 milyard zərər vurdu**

yazısı səh.11-də

**PUA tarixində növbəti ilk - biz yolun harasındayıq...**

yazısı səh.6-da

**Terrorçular da süni intellektə sevinir - şok səbəb**

yazısı səh.12-də

**Narkotiklərin satışını həyata keçirən 148 səhifə bağlandı**

yazısı səh.12-də

**Əhməd Rəcəbli küçəsində hərəkət məhdudlaşdırılacaq**

yazısı səh.14-də

**Ötən ay Azərbaycana turist gəlişi 21% artıb**

yazısı səh.13-də

**"Rusiyanın neft-qaz gəlirləri artıb**

yazısı səh.14-də

## Azərbaycan BRİCS-ə üzvlüyün bir addımlığında - rəy

Deputat: "Ölkəmizin enerji infrastrukturu, boru kəmərləri BRİCS ölkələri ilə enerji ticarətində yaxından köməklik göstərə bilər"

yazısı səh.5-də



*Zülfüqar Yusifov:*

**"Koronavìrus həm də sìstem xəstəlìyìdìr, orqanìzmì cìddì zədələyìr"**

yazısı səh.13-də



**Ermənìlər Roma Papasına qarşı - bìr məqalə ìlə faş olan böyük yalan**

yazısı səh.7-də



*Toivo Klaar:*

**"Sülh müqavìləsì layìhəsìnìn əksərìyyətì artıq razılaşdırılıb"**

yazısı səh.4-də



## Prezident yeni avtomobil yolunun açılışında iştirak etdi

**Avqustun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xətai rayonu ərazisində "Cavanşir" körpüsünün yerində inşa olunmuş şəhər əhəmiyyətli yeni avtomobil yolunun açılışında iştirak edib.**

APA xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "Azəryolelmitədqiqatlayihə" İnstitutunun direktoru Azər Nemətli dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və tıxac probleminin nisbətən azaldılması məqsədilə Xətai rayonu ərazisində Üzeyir Hacıbəyov küçəsində yerləşən və uzun illər istismar edildiyindən yükgötürmə qabiliyyətini itirmiş, uzunluğu 202 metr, eni 17,3 metr təşkil edən 12 aşırımlı "Cavanşir" körpüsü sökülərək, yerində şəhər əhəmiyyətli yeni avtomobil yolunun tikintisi işləri həyata keçirilib. Dörd hərəkət zolaqlı yeni yolun uzunluğu 400 metrdir.

Məlumat verilib ki, həm nəqliyyat vasitələrinin, həm də piyadaların ərazidə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün yeni piyada səkiləri salınıb. Layihəyə uyğun olaraq, ayırıcı zolaqlarda və yol kənarlarında əlavə abadlıq işləri görülüb, münbit torpaq qatı verilərək yeni yaşıllıq ərazilər salınıb, ən müasir işıqlandırma sistemi yaradılıb.

Xatırladaq ki, Bakı şəhəri, Xətai rayonu, Afiyəddin Cəlilov və Üzeyir Hacıbəyli küçələri istiqamətində yerləşən, uzunluğu 202, eni 17,3 metr olan "Cavanşir" yolötürücüsü dəmir yolu vasitəsilə yüklərin qısa zamanda dəniz limanına çatdırılması üçün 1962-ci ildə istismara verilmişdi. Həmin ərazidə dəmir yolu şəbəkəsinin ləğv edilməsi ilə körpünün əvvəlki əhəmiyyətini itirməsi, həmçinin yolötürücüsünün yükgötürmə qabiliyyətinin müasir normativ yük təsirinə cavab verməməsi nəzərə alınaraq təhlükəsizlik baxımından bu qurğunun sökülməsi məqsədəuyğun hesab edilmişdi.

## 8 yaşlı qız faciəvi şəkildə öldü

**Sumqayıtda 8 yaşlı qız faciəli şəkildə ölüb.**

Musavat.com lent.az-a istinadən bildirir ki, hadisə şəhərin Corat qəsəbəsində qeydə alınıb.

Qəsəbə sakini, 2016-cı il təvəllüdlü Sevil Allahverdiyeva yaşadığı evin həyətində oynayarkən ipi yandırıb. Nəticədə yanan ipdən uşağa od düşüb. Valideynləri tərəfindən söndürülərək təcili xəstəxanaya çatdırılan azyaşlı aldığı yanıq xəsarətlərindən orada ölüb.

Faktla bağlı araşdırma aparılır.



## Bu universitet "evlilik" fakültəsi açır

**Çin hökuməti evlilik və doğum nisbətlərinin azalması ilə bağlı mübarizəni davam etdirir.**

Ölkə məsələnin həlli üçün universitetlərdə "evlilik" fakültəsi açmaq qərarına gəlib.

Bu payızda açılması planlaşdırılan şöbə nikahla əlaqəli sənayeləri və mədəniyyəti inkişaf etdirmək üçün peşəkarlar yetişdirmək məqsədi daşıyır.

Gənclərin evlənməkdən çəkinmələrinin səbəbi Çin iqtisadiyyatının durğunluğuna görə iş imkanlarının pisləşməsi və istehlakçı inamının azalmasıdır. **Redaktor.az**

# Ramiz Mehdiyevin qızının 25 milyonluq mülkünü alan olmadı



**"Bakı Oksford Məktəbi"nin müsadirə olunan binası iyul ayının 29-da açıq hərraca çıxarılıb.**

Musavat.com Yeni-avaz.com-a istinadla xəbər verir ki, Bakı şəhəri, Səbayel rayonu, Abbasqulu Abbaszadə küçəsi, 108 ünvanında yerləşən bina hərraca çıxarılsa da, satılmayıb.

Məlumat üçün bildirək ki, ümumi sahəsi 18 min 972,2 kvadratmetr olan binanın start qiyməti 24 milyon 703 min manatdır. 27 avqust tarixində keçirilməsi nəzərdə tutulan təkrar hərracda binanın start qiyməti dəyişməz qalacaq.

"Bakı Oksford Məktəbi"nin binası hazırda həbsdə olan "Baku Steel Company" şirkətinin sabiq rəhbəri Rasim Məmmədova və yaxınlarına məxsus müsadirə olunan əmlaklardan biridir. Məktəbin Səbayel rayonu, Abbasqulu Abbaszadə küçəsi 108 ünvanında yerləşən binasının sahiblərindən biri Rasim Məmmədovun xanımı Mehriban Məmmədovadır.

Binanın 2-ci sahibi isə Prezident Aparatının sabiq rəhbəri, AMEA-nın keçmiş prezidenti Ramiz Mehdiyevin qızı Kamilə Əliyevadır. Hər iki mülkiyyətçinin binadakı payı 50% təşkil edir. Kamilə Əliyeva eyni zamanda sabiq millət vəkili İlham Əliyevin xanımıdır.



## Qırğızıstanla COP29-a hazırlıq müzakirə olundu

**Bakıda Qırğız Respublikasının nümayəndə heyəti ilə görüş keçirilib**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən Modern.az-a verilən məlumata görə, görüşdə Azərbaycanın bu il ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Qırğız Respublikasının təbii resurslar, ekologiya və texniki nəzarət naziri Azis Saparaliyevin başçılıq etdiyi nümayəndə heyəti və ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev iştirak edib.

## Türkiyə İsraillə bağlı BƏM-ə sənədlər təqdim edəcək



**Türkiyə çərşənbə günü İsrailə qarşı başladılan Soyqırım işinə müdaxilə etmək üçün Beynəlxalq Ədalət Məhkəməsinə sənədlər təqdim edəcək.**

APA-nın Türkiyə müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə xarici işlər naziri Hakan Fidan misirli həmkarı Bedir Abdulati ilə birgə mətbuat konfransı zamanı bildirib.

"Fələstinlilər atəşkəs danışıqlarında konstruktiv yanaşma nümayiş etdirsələr də, İsrail hər zaman oyunu pozan tərəf olub. Haniyəyə sui-qəsd bunu açıq şəkildə göstərdi ki, Netanyahu sülh istəmir", - deyə o qeyd edib.



## Laçında itkin düşmüş hərbçilərin meyitlərinin qalıqları tapıldı

**2022-ci il martın 3-də Laçın rayonunda sərhəd istiqamətində itkin düşən hərbçilərin meyitləri aşkarlanıb.**

"Report"un xəbərinə görə, Firdovsi Mayis oğlu Abdullayev və Fərid Əjdər oğlu Məmmədovun Kəlbəcər rayonunun İstisu qəsəbəsində Yüzbulaq yaylağında meyitlərinin qalıqları aşkarlanıb.

Məlumata görə, hərbçi Firdovsi Mayis oğlu Abdullayev avqustun 8-i Gəncə şəhəri Şəhidlər xiyabanında, digər hərbçi Fərid Əjdər oğlu Məmmədov Ağdam rayonu Orta Qərvənd kəndində dəfn ediləcək.

Qeyd edək ki, 2022-ci il martın 3-də Laçın rayonu ərazisində yerləşən bir döyüş mövqeyindən digərinə hərəkət edən Azərbaycan Ordusunun əsgərləri - F.Məmmədovla F.Abdullayev hava şəraitinin qəfil dəyişməsi və çovğun səbəbindən azaraq itkin düşüblər.



## Qarabağda 55 seçki məntəqəsi yaradılıb

**İşğaldan azad olunmuş ərazilərdə 55 məntəqə yaradılıb.**

Modern.az xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın avqustun 5-də keçirilən iclasında söyləyib.

O bildirib ki, məcburi köçkünlər 574 məntəqədə səs verə biləcəklər. Onların sayı isə 399 min 56 nəfərdir.

YENİ MÜSAVAT
N 137 (8510) 6 avqust 2024

# Separatçı-xuntaçıların məhkəməsi COP29-dan sonra başlayacaq? - rəy

## Hüquqşünas: “Onlar cinayət dosyeləri ilə tanış olduqdan sonra ədalət məhkəməsinə çıxarılacaqlar”




**Gələn ay Qarabağda 24 saatlıq antiterror tədbirlərinin 1 ili tamam olacaq. Bu möhtəşəm əməliyyatın daha bir uğuru əlbəttə ki, separatçı-xunta rejiminin cinayətkar rəhbərlərinin əksərinin ələ keçirilməsi oldu.**

Yada salaq ki, baş prokuror Kamran Əliyev bildirib ki, artıq 15 nəfərlə bağlı istintaq hərəkətləri başa çatıb: “Hazırda təqsirləndirilən şəxslər, vəkillər və zərərçəkmiş şəxslər cinayət işi materialları ilə tanış olurlar. Tanış olma mərhələsi başa çatandan sonra ittiham aktı məhkəməyə göndəriləcək”.

Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq “xarici işlər naziri” Davit Babayan, eləcə də “parlament sədri” David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və digərləri müharibə cinayətlərində ittiham olunurlar. Azərbaycanın hüquq-mühafizə orqanları və istintaqçıları erməni separatçılarının ötən 30 il ərzində xalqımıza qarşı törətmiş olduğu hərbi cinayətləri detalları ilə araşdırıb. Azərbaycanlılara qarşı soyqırımında, doğma yurd-yuvalarından qovulmasında, əmlaklarının talan edilməsində və s. kimi cinayətlərdə iştirak ediblər.

İbtidai istintaqın materialları ilə həmin şəxslərin, həm onlarının müdafiəçilərinin, prosessual qanunvericiliklə nəzərdə tutulmuş digər şəxslərin cinayət işi ilə tanış olması mərhələsi başlayıb. Hazırda onlar Bakıda öz məhkəmələrini və haqq elədikləri cəzaları gözləyirlər. Bəs Azərbaycan qanunvericiliyinə görə, məhkəmə prosesi uzağı nə vaxt başlanmalıdır? Prosesin COP29-dan sonraya qalması qanunla mümkünmü, yoxsa? Hüquqi proseduralar nə deyir?

“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov “Yeni Müsavat”a deyib ki, uzun illər Azərbaycan vətəndaşlarına qarşı törədilən vandalizm, qətl, terrorçuluq və digər hərəkətlər bilavasitə bu separatçı rejimin rəhbərliyi altında baş verib: "44 günlük Vətən müharibəsindən sonra separatçı rejim yenə də Qarabağın bir hissəsində, xüsusən də Xankəndi şəhərində qalmaqla, Azərbaycana qarşı hədələr, təhdidlər səsləndirirdi. Azərbaycan torpaqlarında oturub ölkəmizə qarşı mübarizə aparmaq üçün qanunsuz silahlı dəstələr formalaşdırırdılar. Bununla onlar Azərbaycan xalqına qarşı cinayətkar əməllərdən əl çəkmədiklərini bir daha nümayiş etdirirdilər. Nəticədə ötən ilin 19-20 sentyabrında bir sutkalıq antiterror tədbirləri ilə Azərbaycan torpaqlarında kök salmış separatizm birdəfəlik məhv edilib. Bu separatçı rejimə müxtəlif illərdə rəhbərlik etmiş, Azərbaycan xalqına qarşı döyüşlərdə iştirakçı olmuş, hərbi cinayətlər törətmiş bir qrup şəxs də saxlanılaraq Bakıya gətirildi. Təbii ki, Azərbaycan xalqı separatçılara rəhbərlik etmiş bir qrup şəxsin istintaqının yekunlaşmasını səbrsizliklə gözləyirdi. Bu gün artıq istintaq yekunlaşıb. Separatçılara törətdikləri cinayətlərin dosyesi ilə tanış olmağa, yaddaşlarını təzələməyə zaman verilib. Bu, qanunun tələbidir. Azərbaycan dövləti həmişə ədalətin yanında olub. Separatçıların Azərbaycan xalqına qarşı törətdikləri ağır hərbi cinayətlərə rəğmən onlara qarşı qanunun tələbinə əsasən məhkəmə qurulacaq. Onlar cinayət dosyeləri ilə tanış olduqdan sonra ədalət məhkəməsinə çıxarılacaqlar. O günü Azərbaycan xaqlı səbirsizliklə gözləyir".

Natiq Ələsgərov bildirib ki, Azərbaycan qanunlarına görə müttəhimlər və onların vəkillərinə ittiham aktı ilə tanış olmaq üçün işin həcmindən asılı olaraq 1-3 ay zaman ayrılır.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# COP29-a görə bu qurumlarda iş rejimi dəyişəcək

**COP29-la əlaqədar dövlət orqanlarında (qurumlarında) iş rejimi dəyişəcək.**

APA-nın xəbərinə görə, bununla bağlı dövlət qurumlarına Nazirlər Kabineti müvafiq tapşırıq verib.

Dövlət qurumlarına (orqanlarına) Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının Bakı şəhərində keçirilməsi ilə əlaqədar tədbirin əhəmiyyəti, iştirakçıların sayı nəzərə alınaraq, tədbirin yüksək səviyyədə təşkil edilməsi məqsədilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə aşağıdakıların təmin olunması tapşırılıb:

- dövlət orqanlarında (qurumlarında) işə cəlb edilən işçilərin sayının ən çoxu 30 faiz müəyyən edilməsi, işçilərin qalan 70 faizinin məsafədən (evdən) işləmələrinin təmin edilməsi (COP29-la bağlı tədbirdə iştirak edən və təşkilati işlərə cəlb edilən əməkdaşlar istisna olmaqla);
- dövlət orqanlarında (qurumlarında) əməkdaşların qrafiki müəyyən edilməklə növbəlilik qaydasında işə cəlb edilməsi;
- dövlət orqanlarında (qurumlarında) iş rejiminin (saatlarının) bu məktuba uyğun olaraq tətbiqinin təmin edilməsi.

Qeyd edilən dövlət orqanları (qurumları) aşağıdakılardır:


1. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
5. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
6. Azərbaycan Respublikasının Energetika Nazirliyi
7. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
8. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
9. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi
10. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
11. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
12. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi
13. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
14. Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi
15. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
16. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
17. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
18. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin işləri Üzrə Dövlət Komitəsi
19. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
20. Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi
21. Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi
22. Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi
23. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi
24. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi
25. Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi
26. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi *(aparat üzrə)*
27. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi *(aparat üzrə)*
28. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi *(aparat üzrə)*
29. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi *(aparat üzrə)*
30. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC)
31. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
32. Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi
33. Azərbaycan Milli Elmlər Akademiyası
34. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi
35. Azərbaycan Respublikasının Dövlət Neft Fondu
36. Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu
37. Azərbaycan Respublikasının Əmanətlərin Sığortalanması Fondu
38. Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu

# “Tərtər işi” ilə bağlı ittiham olunan bir qrup hərbçinin apelyasiya şikayəti təmin olunmayıb

**“Tərtər işi” ilə bağlı ittiham olunan bir qrup hərbçinin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

APA xəbər verir ki, Bakı Apelyasiya Məhkəməsində hakim Mirzəli Abbasovun sədrliyi ilə polkovnik Vüsal Ələsgərov, sabiq qərargah rəisi, polkovnik-leytenant Rəşid Niftəliyev, müddətdən artıq hərbi xidmət keçən Ramil Qarayev və Rüstəm Ələsgərovun cinayət işi üzrə verilmiş apelyasiya şikayətinə baxılıb.

Məhkəmədə apelyasiya şikayəti təmin edilməyib, bundan öncəki qərar qüvvədə qalıb.



Qeyd edək ki, bundan əvvəlki məhkəmə prosesindəki hökmə əsasən, V.Ələsgərov 5 il 6 ay, R.Ələsgərov 9 il 6 ay, R.Niftəliyev 5 il 6 ay, R.Qarayev isə 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.




# Azad edilmiş ərazilərdə daha 367 mina, 8086 PHS aşkarlanıb

**İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən icra olunan əməliyyatlar barədə həftəlik məlumat (29.07.2024 - 04.08.2024) açıqlanıb.**

ANAMA-dan APA-ya verilən məlumata görə, Tərtər, Ağdam, Ağdərə, Laçın, Füzuli, Şuşa, Xocalı, Xankəndi, Kəlbəcər, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilanda 280 piyada əleyhinə mina, 87 tank əleyhinə mina, 8086 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb.

Bildirilib ki, 2790.9 hektar ərazi mina və PHS-lərdən təmizlənib.

YENİ MÜSAVAT
N 137 (8510) 6 avqust 2024



## Toivo Klaar: "Sülh müqaviləsi layihəsinin əksəriyyəti artıq razılaşdırılıb"

**"Ümid edirəm ki, Azərbaycan və Ermənistanın siyasi iradəsi və davamlı səyləri sayəsində düşmənçilik və zorakılıq səhifəsi bağlanacaq, nəhayət, bütün region xalqlarının xeyrinə çevriləcək".**

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bu barədə Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar yerli mətbuata müsahibəsində bildirib.

"Bildiyim qədər, sülh müqaviləsi layihəsinin əksəriyyəti artıq razılaşdırılıb. Mənə elə gəlir ki, çatışmayan yeganə şey finişə çatmaq üçün lazım olan siyasi iradədir. Əminik ki, qalan məsələlər üzrə yekun razılaşma əldə olunub. Sülh müqaviləsi və onun sonrakı icrası regionda vəziyyəti kökündən dəyişəcək. Düşünürəm ki, liderlər də bu nöqteyi-nəzəri bölüşürlər və bu məsələ ilə bağlı yekun razılığın əldə olunması üçün lazım olan bütün səyləri göstərəcəklər", - deyə Klaar qeyd edib.

Toivo Klaar bununla belə, prosesin çətin keçəcəyini bildirib.

"Bu yaxınlarda Böyük Britaniyada keçirilən Avropa Siyasi Birliyinin sammiti zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın görüşməməsi bu prosesin nə qədər kövrək olduğunu göstərdi", - deyə o qeyd edib.

❑ **Musavat.com**




## Ermənistan Türkiyə ilə sərhəddə təmir və təchizat işlərini başa çatdırıb

**Ermənistan Türkiyə ilə sərhəddəki "Marqara-Alican" nəzarət-buraxılış məntəqəsinin bu ölkəyə aid hissəsində təmir və təchizat işlərini başa çatdırıb.**

APA-nın xəbərinə görə, bu barədə məlumat Ermənistan mətbuatında yer alıb.

Bildirilib ki, iki ölkənin hökumət rəsmiləri arasında əldə olunan razılaşmaya uyğun olaraq, məntəqə üçüncü ölkələrin diplomatik pasportlarına malik vətəndaşlara xidmət göstərilməsi üçün hazır vəziyyətə gətirilib.

Məlumata əsasən, rəsmi İrəvan hazırda analoji prosesin Türkiyə tərəfinin də həyata keçirməsini gözləyir.

Qeyd edək ki, Türkiyə və Ermənistan rəsmiləri arasında keçirilən 5-ci görüşdə sözügedən məntəqənin texniki imkanlarının qiymətləndirilməsi və "Akyaka-Axurik" dəmir yolunun üzərindəki sərhəd-keçid məntəqəsinin işə salınması ilə bağlı razılaşma əldə edilib.

# Seçkiqabağı təbliğat kampaniyası başlayır - reklam şərtləri, qiymətlər

## Bu media qurumlarında ödənişli əsaslarla təşviqat həyata keçirilə bilər




**Azərbaycanda sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərinin əsas mərhələlərindən biri - deputatlığa namizədliyin irəli sürülməsi başa çatıb. Artıq avqustun 2-dən sonra Milli Məclisə seçkilərdə namizədliyin qeydə alınması üçün müvafiq sənədlərin dairə seçki komissiyalarına təqdim olunması dayandırılıb.**

Növbəti mərhələdə - 2-9 avqust tarixlərində qanunvericiliklə müəyyən olunmuş vaxtda və qaydada təqdim olunan sənədlərə baxılacaq və namizədliyin qeydə alınması ilə bağlı yekun qərarlar veriləcək.

Ardınca 23 gün davam edəcək seçkiqabağı təşviqat kampaniyası avqustun 9-da start götürəcək və 31-də bitəcək (31 avqust sükut günüdür).

Qanunla dövlət tərəfindən bu dəfə də namizədə pulsuz efir vaxtı ayrılacaqmı? Hansı telekanallarda? Bəs "Yeni Müsavat" Media Qrupu (qəzet, TV) namizədlərin təbliği üçün hansı qiymətlər təklif edir?

Mərkəzi Seçki Komissiyasının mətbuat xidmətindən "Yeni Müsavat"a bildirilib ki, seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq, Milli Məclisə seçkilərdə seçkiqabağı təşviqat aparmaq məqsədilə ölkə üzrə birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına İctimai Televiziya və Radio Yayımları Şirkətində ödənişsiz efir vaxtı, "Azərbaycan" qəzeti, "Xalq qəzeti", "Respublika" qəzeti və "Bakinski rabočí" qəzetlərində isə ödənişsiz dərc üçün yer ayrılacaq. Bununla yanaşı, ödənişli seçkiqabağı təşviqata qoşulmaqla bağlı 58 media qurumundan təqdim olunan məlumat da MSK-nın rəsmi internet səhifəsində yerləşdirilməklə ictimailəşdirilib. Bu media qurumlarında bütün təşviqat subyektləri üçün bərabərlik prinsipi gözlənilməklə, ödənişli əsaslarla seçkiqabağı təşviqat həyata keçirilə bilər.

**"Yeni Müsavat" Media Qrupunun baş direktoru Ələsgər Süleymanov** da sualımızı cavablandırarkən deyib ki, hər seçkilərdə olduğu kimi, bu il sentyabrın 1-nə təyin olunmuş növbədənkənar parlament seçkilərində də "Yeni Müsavat" Media Qrupu öz resurslarında bütün namizədlərə bərabər şərtlərlə təbliğat-təşviqat işlərini aparmaq imkanı yaradıb: "Bununla bağlı Mərkəzi Seçki Komissiyasına rəsmi müraciət olunub və bu məlumatlar MSK-nın saytında artıq yerləşdirilib. "Yeni Müsavat" Media Qrupuna aid olan resurslarda təbliğat qiymətləri aşağıdakı kimidir:

*"Yeni Müsavat" qəzetində 1 səhifə (A3 formatda) -1000 (bir min) AZN;*

*1/2 səhifə - 500 (beş yüz) AZN;*

*1/4 səhifə - 250 (iki yüz əlli) AZN"*

*"Musavat.com" saytında 10 min işarəyədək, 2 foto ilə - 500 (beş yüz) AZN;*

*"Minval.az" saytında 10 min işarəyədək, 2 foto - 300 (üç yüz) AZN;*

*"TV Müsavat" internet televiziyası, tam veriliş - 1000 (bir min) AZN;*

*"TV Müsavat" internet televiziyası, 1 (bir) saniyəsi- 10(on) AZN.*

Bütün qeydiyyata alınmış namizədləri media qrupumuzun resurslarından yararlanmağa dəvət edirik".

Bu arada, Mərkəzi Seçki Komissiyası (MSK) Milli Məclisə seçkilərlə əlaqədar aşağı seçki komissiyaları üçün treninqlərə başlayıb. MSK-dan verilən məlumata görə, 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) fərqli statuslu seçki iştirakçıları üçün müxtəlif istiqamətlər üzrə maarifləndirmə layihələri intensiv şəkildə davam edir. Komissiyanın maarifləndirmə proqramı çərçivəsində ümumrespublika miqyaslı növbəti layihəyə - aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə başlanılıb. Öncə onu qeyd etmək lazımdır ki, MSK-nın nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı şəraitində 22 il bundan əvvəl - 2002-ci ildə əsası qoyulan treninq layihəsi ilbəil təkmilləşdirilib, xüsusilə 2008-ci ildən sonra yeni forma və məzmun əlavə olunmaqla daha da genişləndirilib. MSK-nın mühüm əhəmiyyət verdiyi və daim məxsusi diqqət yetirdiyi treninqlər, bir qayda olaraq, ölkəmizdə keçirilən bütün seçkilərdə təşkil edilməklə, dairə və məntəqə seçki komissiyaları üzvlərinin məlumatlılığının, bilik və bacarıqlarının, o cümlədən işgüzar və peşəkar vərdişlərinin yüksəldilməsində müstəsna rol oynayır.

Qarşıdan gələn Milli Məclisə seçkilərlə əlaqədar treninqlər MSK-nın maarifləndirmə proqramına əsasən iki mərhələli formatda keçiriləcək. Layihənin "Trenerlər üçün treninq" adlı birinci mərhələsinə avqustun 5-dən start verilib və müxtəlif əyani, metodiki, habelə yardımçı vəsaitlərdən istifadə olunmaqla, tam praktiki məşğələlər şəklində təşkil edilib. Beş gün fasiləsiz keçiriləcək bu treninqlərə ölkə üzrə 125 seçki dairəsi dairə seçki komissiyasının hər birindən iki təmsilçi olmaqla, ümumilikdə 250 yerli trener cəlb olunur. Treninqlər zamanı iştirakçılara seçki günü məntəqə seçki komissiyası üzvlərinin rol və vəzifələri, seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri müəyyənləşdirilərək rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün prosedurlar barədə aydın və əhatəli məlumat verilir.

Seçki günü prosedurları, səsvermə hərəkətləri və qarşıya çıxa biləcək müstəsna hallar izah edilərkən praktiki məşğələlərə geniş yer verilir, müxtəlif məqamlar əyani şəkildə səhnələşdirilərək təqdim olunur və yaranan suallar yerindəcə cavablandırılır.

Treninq layihəsinin avqustun 12-dən başlanacaq ikinci mərhələsi məntəqə seçki komissiyalarının bütün üzvlərini əhatə etməklə, seçki dairələri üzrə məntəqə seçki komissiyalarının sayına uyğun olaraq, 3-10 gün davam edəcək. Bu mərhələnin də maksimum effektiv, praktiki və informativ olması üçün treninqlərin MSK-nın Treninq qrupu tərəfindən hazırlanan cədvəl əsasında kiçik qruplarla - təqribən 40 nəfərədək aşağı seçki komissiyası üzvünün iştirakı ilə keçirilməsi nəzərdə tutulur.

Həm təlimlərdə istifadə etmələri, həm də seçki günü prosedurları ilə yaxından tanış olmaları məqsədilə treninqlərə cəlb edilən bütün iştirakçılar MSK-nın hazırladığı "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələrinə dair protokol nümunəsi, habelə digər əyani və metodiki vəsaitlərlə təmin olunacaqlar. Treninq layihəsi ümumilikdə 40 minə yaxın aşağı seçki komissiyası üzvünü əhatə edir.

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 137 (8510) 6 avqust 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

# Azərbaycan BRİCS-ə üzvlüyün bir addımlığında - rəy

## Deputat: "Ölkəmizin enerji infrastrukturu, boru kəmərləri BRİCS ölkələri ilə enerji ticarətində yaxından köməklik göstərə bilər"

**Ötən ay Azərbaycan daha bir beynəlxalq təşkilata üzv olmaq istəyini ifadə etdi. VI çağırış Milli Məclisin sədri Sahibə Qafarova BRİCS ölkələrinin X Parlament Forumunun plenar iclasında çıxışı zamanı bəyan etdi ki, Azərbaycan BRİCS-in tamhüquqlu üzvü olmaq istəyir: "Azərbaycan xarici siyasətində dialoqu, əməkdaşlığı və həmrəyliyi təşviq edir. Bu, ikitərəfli münasibətlərə və beynəlxalq platformalar çərçivəsində fəaliyyətə, xüsusilə BRİCS-lə əməkdaşlığa aiddir. Azərbaycan artıq BRİCS-ə qoşulmaq arzusunu ifadə edib".**




Onun sözlərinə görə, parlamentlər səviyyəsində əməkdaşlığın inkişafı bu məqsədə nail olmağa kömək edəcək.

Qeyd edək ki, iyulun 3-4-də Azərbaycan Prezidenti İlham Əliyev də BRİCS-in Astana sammitində iştirak edib. Burada Prezident də ölkəmizin BRİCS-ə qəbul olunmasının vacibliyini bəyan eləyib.

Ekspertlər bildirir ki, BRİCS-də təmsil olunmağımız ölkəmizin nəqliyyat, ticarət sahəsində imkanlarını artıracaq. BRİCS-də dünyanın böyük iqtisadiyyatına malik ölkələr cəmləşib. Bu xüsusda, əsasən Çini qeyd etmək olar. BRİCS çərçivəsində Çinlə əməkdaşlıq ölkəmizə mühüm töhfələr verəcək. Azərbaycanın Braziliya və Cənubi Afrika Respublikası ilə də sıx əməkdaşlıq əlaqələri var. Rusiya ilə də əlaqələrimiz daim inkişaf edir. Bu ölkə ilə də bir sıra layihələr həyata keçirilir. BRİCS-ə üzv olmağımız Azərbaycanın nəqliyyat, ticarət və digər sahələrdə imkanlarını artıracaq.

Siyasi müstəvidə isə təşkilata üzvlük Azərbaycana öz maraqları uğrunda mübarizədə BRİCS ölkələrinin daha geniş dəstəyini almağa kömək edəcək. Azərbaycan dünya ölkələri ilə əlaqələrini əməkdaşlıq və tərəfdaşlıq istiqamətində qurur. Bu mənada BRİCS-də təmsil olunmaqla Azərbaycan siyasi müstəvidə də təşkilatda təmsil olunan ölkələr hesabına öz istəklərinə dəstək qazana bilər.

Qeyd edək ki, dünya ölkələrinin bir-biri ilə həm iqtisadi, həm də siyasi əlaqələrinin olması və möhkəmləndirilməsi üçün müxtəlif təşkilatlar və qruplar mövcuddur. Bu qruplardan biri isə Braziliya, Rusiya, Çin, Hindistan və Cənubi Afrikanı özündə birləşdirən BRİCS-dir. 2009-cu ildə yaradılan bu təşkilat ilk vaxtlar BRİC, 2011-ci ildən sonra Cənubi Afrikanın (South Africa) qrupa daxil olması nəticəsində BRİCS adlandırılmağa başlandı. BRİCS qrupuna daxil olan ölkələr ən tez inkişaf etmiş böyük ölkələr kimi səciyyələnirlər. Buraya daxil olan ölkələr müxtəlif zənginliklərinə görə seçilir. Braziliya kənd təsərrüfatı resursları, Rusiya dünyada ən böyük mineral resurslar, Hindistan ucuz intellektual resurslar, Çin ucuz əmək resursları, Cənubi Afrika Respublikası isə təbii resursları ilə fərqlənir. Sonralar Argentina, Misir, Efiopiya, İran, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri kimi dövlətlər də bu təşkilata daxil oldu. Zaman keçdikcə 23 ölkə təşkilata rəsmi üzv olmaq üçün müraciət edib.

Artıq Azərbaycan və Türkiyənin BRİCS-ə üzv olmaq istəyi bəyan edilib.

Hazırda 59 ölkə BRİCS-ə üzv olmağa maraq göstərir. Bunların içərisində Azərbaycan da öz yerini tutur. Hətta bununla bağlı Azərbaycan Respublikasının Çinlə birgə qəbul etdiyi bir deklarasiyada da bu məsələ öz əksini tapır. Çin Azərbaycanın BRİCS-ə qoşulmaq arzusuna müsbət yanaşaraq bu addımını alqışlayıb. Ötən ay Çində səfərdə olan Türkiyənin xarici işlər naziri Hakan Fidan da BRİCS-ə qoşulmaq istəyini bildirib. Hakan Fidan BRİCS-ə qoşulmaq haqqında öz fikrini "Təbii ki, biz BRİCS-ə üzv olmaq istərdik. Görək bu il nəyə nail ola biləcəyik" sözləri ilə bildirib.

**Deputat Aydın Hüseynov** "Yeni Müsavat"a şərhində bildirib ki, Azərbaycanın BRİCS-ə üzv olmaqda əsas məqsədi iqtisadi, siyasi, nəqliyyat əlaqələrini daha da genişləndirməkdir. BRİCS ölkələri dünyanın nəhəng dövlətləridir. Onların dünya iqtisadiyyatında rolu danılmazdır: "Azərbaycanın bu təşkilata qoşulmaqda ən başlıca məqsədlərindən biri də digər dünya ölkələri ilə ticarət əlaqələrini genişlətməkdir. Danılmaz haldır ki, Azərbaycan Respublikası alternativ enerji mənbələri ilə zəngindir. BRİCS ölkələri ilə enerji sahəsində əməkdaşlıqlar qurmaq bu resursların daha geniş bazarlara çıxmasına səbəb ola bilər. Eyni zamanda Azərbaycanın yerləşdiyi coğrafi mövqe də Avropa və Asiya arasında strateji rol oynayır. Orta dəhlizin Azərbaycandan keçməsi Azərbaycanın BRİCS-ə üzv qəbul edilməsi üçün amillərdən biri rolunu oynaya bilər. Azərbaycan BRİCS-ə üzv olarsa, bu addım onun siyasi və iqtisadi arenada təsir gücünü birə-beş artıracaq. Bunlarla yanaşı, geniş layihələr zamanı BRİCS-in inkişaf bankı kimi Azərbaycan müəyyən maliyyə dəstəyi əldə edə bilər".

**Deputat qeyd edib ki, Azərbaycan artıq BRİCS ölkələri ilə yüksək ikitərəfli iqtisadi əlaqələr yaratmağa nail olub. Xüsusilə Rusiya və Çinlə:** "Rusiya və Çinlə ticarətlər müasir dövrümüzdə daha da genişlənir, bunun nəticəsidir ki, Azərbaycan Çindən böyük investisiyalar cəlb edir. Rusiya əlaqələrinə nəzər saldıqda isə Rusiya ilə Azərbaycan arasında 2022-ci ildə "Müttəfiqlik, qarşılıqlı fəaliyyət haqqında" Bəyannamə imzalanıb. Bu sənəd ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin genişlənməsində xüsusi rol oynayır. Bu əlaqələr sırasında başda nəqliyyat və enerji istehsalı və ixracatı dayanır. Azərbaycanın enerji infrastrukturu, boru kəmərləri BRİCS ölkələri ilə enerji ticarətində yaxından köməklik göstərə bilər. Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsündə böyük rol oynayır və həmin təşəbbüs çərçivəsində BRİCS ölkələri ilə ticarət əlaqələri inkişaf etdirilir. Azərbaycan həmçinin Cənubi Afrika və Hindistanla da ticarət əlaqələrini genişləndirmək üçün müxtəlif layihələr həyata keçirir. İkitərəfli əlaqələrin genişlənməsi BRİCS-ə üzvlüyümüz üçün imkanları daha da artırır".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Etibar SEYİDAĞA**

# XİN xəbərdarlıq etdi - bu ölkələrə getməyin



**Azərbaycan Xarici İşlər Nazirliyi vətəndaşlara müraciət edib.**

Musavat.com xəbər verir ki, müraciətdə deyilir:

"Fələstin Dövlətinin yerləşdiyi regionda sürətlə dəyişən təhlükəsizlik vəziyyəti nəzərə alınaraq, Azərbaycan Respublikası vətəndaşlarına zəruri olmadığı təqdirdə Fələstin Dövlətinə səfər etməmələri tövsiyə olunur.

Hazırda Fələstin Dövlətində yaşayan və səfərdə olan Azərbaycan Respublikası vətəndaşlarının mühafizə və təhlükəsizlik qaydalarına riayət etmələri, əhalinin sıx toplaşdığı yerlərə getməmələri zəruridir".

XİN-in digər bəyanatında isə İsrail Dövlətinin yerləşdiyi regionda sürətlə dəyişən təhlükəsizlik vəziyyəti nəzərə alınaraq, Azərbaycan Respublikası vətəndaşlarına zəruri olmadığı təqdirdə İsrail Dövlətinə səfər etməmələri tövsiyə olunur.

Hazırda İsrail Dövlətində yaşayan və səfərdə olan Azərbaycan Respublikası vətəndaşlarının mühafizə və təhlükəsizlik qaydalarına riayət etmələri, əhalinin sıx toplaşdığı yerlərə getməmələri zəruridir.



# İsrail HHQ-nin hücuma hazır olması barədə xəbərdarlıq edilib

**İran və "Hizbullah"ın İsrailə gözlənilən hücumu ilə bağlı artan gərginlik fonunda müdafiə naziri Yoav Qallant İsrail Hərbi Hava Qüvvələrinin Təl-Əvivdə İDF qərargahındakı yeraltı komandanlıq mərkəzinə baş çəkib.**

APA "Times of Israel"ə istinadən xəbər verir ki, İsrail müdafiə naziri təhlükəsizlik vəziyyəti ilə bağlı müzakirə aparıb.

"Son bir ildə nümayiş etdirdiyiniz bacarıqlar sayəsində düşmənlərimiz öz addımlarını diqqətlə nəzərdən keçirir. Bununla belə, biz bütün imkanlara, o cümlədən hücuma sürətli keçidə hazır olmalıyıq", - Qallant bildirib.

İsrail Müdafiə Nazirliyi bildirib ki, Qallant "təhlükəsizliyin inkişafı fonunda" İsrail hava qüvvələrinin hazırlığını, eləcə də "bütün döyüş sektorlarında hücum hərəkəti imkanlarını" müşahidə edib.

YENİ MÜSAVAT
N 137 (8510) 6 avqust 2024



# PUA tarixində növbəti ilk - biz yolun harasındayıq...

## Emin Həsənli: "Azərbaycan bu sahədə bir çox ölkələri qabaqlayıb və..."

## Səxavət Məmməd: "Rusiya-Ukrayna müharibəsi məcbur etdi ki..."

**PUA texnologiyaları sahəsində hərbi mühəndislər az qala hər il yeni bir ilkə imza atırlar. Təbii ki, yeni və daha böyük uğurlar hələ qabaqdadır. Əsas odur ki, bu yarışda hansı ölkə və nə dərəcədə irəli gedib öz hərbi arsenalını gücləndirə biləcək.**

Bu arada Ukrayna Silahlı Qüvvələri ilk dəfə pilotsuz uçuş aparatının (dron) köməyi ilə Rusiyaya məxsus 12 tonluq "Mi-8" helikopterini havada vurmağa nail olub. Bu barədə "Forbes" xəbər verib.

Bildirilir ki, buna qədər ən azı 10 aylıq cəhdlər edilib. İlkin məlumatlara görə, bir kiloqramlıq pilotsuz təyyarə Donetskin şərqində, cəbhə xəttindən təxminən 16 km aralıda helikopteri vurub. Xəbərə görə, bu qədər məsafəni uçmaq üçün bir FPV-dron arxadan gələn və siqnalı yayan ikinci bir PUA-nın köməyinə ehtiyac duya bilər.

"Bu, diqqətli koordinasiya tələb edən mürəkkəb əməliyyatdır. Ukraynalıların hər ay nə qədər dron istehsal etdiyini nəzərə alsaq, Rusiya helikopterləri üçün təhlükə çox ciddi şəkildə arta bilər", - nəşr qeyd edib.

Bunlar nə dronlardır belə? Azərbaycan Ordusunun bu cür imkanları varmı, nə yerdədir? Ümumiyyətlə, biz yeni nəsil PUA texnologiyaların istehsalı və tətbiqi ilə bağlı yolun harasındayıq?

**Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli Azərbaycanın silah məsələsində ən həssas ölkələrdən biri olduğunu qeyd etdi:** "Silahlar ilk yaranan dövrdə dünyada müharibə gedən ocaqlar var idi. Həmin zamanlarda silahlar gec dəyişirdi. Bəzən əsrdə bir dəfə silah dəyişmələri olurdu. XX əsrdə isə 10 ildən bir silahlar dəyişməyə başladı. XX əsrin sonları və XXI əsrin əvvəllərində bu proses daha da sürətləndi. Bəzən olur ki, indi hər ay silahlar dəyişir. Tək internet texnologiyası, silahlar deyil, əmək alətləri belə sürətlə dəyişir. Ümumiyyətlə, hazırda elə dövrdə yaşayırıq ki, yeni-yeni texnologiyalar demək olar ki, hər gün meydana çıxır. Silah istehsalının sürətlənməsi məcbur edir ki, ölkələr bu sahədə rəqabətə girsinlər. Keçmişdə də əslində belə idi. İndi də proses ona doğru gedir ki, hər 10 gündən bir dəyişiklik olsun. Hərbi sahədə baş verən bu sürətli dəyişikliklər əslində gözlənilməndir. Çünki dünyanın müxtəlif regionlarında durmadan qarşıdurmalar, münaqişə ocaqları yaranır. II Qarabağ savaşından sonra ümumiyyətlə, silahlanmaya münasibət dəyişdi. Müharibədə yeni bir dövr, era açıldı. Azərbaycan bu irəliləyişləri tətbiq edən ölkələrdən biridir. Silah hazırlanması istiqamətində müvafiq qurumlar fəaliyyət göstərir. Qardaş Türkiyə, İsraillə bu sahədə sıx əməkdaşlığımız var. Dövlətimiz çalışır ki, ən müasir silahlar ölkəmizdə olsun. Bu istiqamətdə davamlı olaraq, təhlillər aparılır. Azərbaycan prosesləri çox yaxından izləyir. Bu istiqamət üzrə çox çevik komandamız var. Beynəlxalq sərgilərdə, eləcə də təlimlərdə nümayiş etdirilən silahlara Azərbaycanın əlçatanlığı var. Təhlillər aparıldıqdan sonra silahlar əldə olunur. Azərbaycan bu sahədə demək olar ki, bir çox ölkələri qabaqlayıb və bir çox dövlətlər də bu sahədə ölkəmizdən nümunə götürürlər".

**Hərbi ekspert Səxavət Məmməd Azərbaycanın dron məsələsinə diqqət ayırmalı olduğunu vurğuladı:** "Yeni nəsil müharibələrdə dronlar əsas rol oynayır. Hətta Rusiya-Ukrayna müharibəsi dronların savaşına çevrilib. Müharibənin ilk ili Rusiya bu sahədə geridə qalsa da, daha çox İran dronları vasitəsilə boşluğu doldurmağa çalışsa da, artıq Rusiya da dron istehsalına çox ciddi önəm verir. Rusiya prezidenti Vladimir Putin bu sahədə işləmək üçün ən azı bir milyon mütəxəssis yetişdirəcəklərini bildirdi. Dövlətlər artıq dron sahəsinə xüsusi önəm verirlər. Xüsusilə kiçik həcmli dronlar maliyyə baxımından az xərc tələb edir, ancaq effektivliyi çox yüksəkdir. Ukrayna tərəfi Rusiya helikopterlərinin vurulması üçün dəfələrlə cəhd ediblər. Təxminən 10 gün bundan öncəyə qədər helikopteri vurmaq üçün cəhdlər edildiyi barədə videolar yayılmışdı. Görünən odur ki, artıq mütəxəssislər niyə helikopteri vura bilmədiklərini müəyyən edib və bunun üçün dronlara lazımı əlavələrini ediblər. 44 günlük müharibə zamanı dronların koordinasiyalı işləməyinin şahidi olmuşuq. Türkiyə, İsrail və yerli istehsal olan dronlar koordinasiyalı şəkildə fəaliyyət göstərirdi. Dronlardan biri obyekti aşkar edirdi, digəri isə ona ya zərbə endirirdi, ya da həmin obyektə çırpılırdı. Rusiya-Ukrayna müharibəsi məcbur etdi ki, texnikaların zirehlərinə yenidən əl gəzdirilsin, səngərlər təkcə öndən yox, həm də havadan qorunaqlı şəkildə tikilsin. Azərbaycan müharibə zamanı dronlardan aktiv şəkildə istifadə etdi. Azərbaycanın bu sahədə böyük təcrübəsi var. Hesab edirəm ki, Azərbaycan özünün dron sənayesini qura bilərdi. Ancaq bunu daha çox Türkiyə ilə birgə həyata keçirir. Dron sənayesində ən çətin məsələlərdən biri mühərrikdir ki, bunu azərbaycanlı mütəxəssislər edə bilib. Bundan əlavə, sualtı dronları da Azərbaycanda istehsal etmək olar. Böyük həcmli dronlar xüsusi əməliyyatlar üçün effektivdir. Kiçik dronların döyüş meydanında necə effektiv olduğunu isə Rusiya-Ukrayna müharibəsi açıq göstərir. Hesab edirəm ki, gələcəkdə ordularda hər manqanın belə dronları olacaq. Ona görə də Azərbaycan indidən bu sahəyə diqqət ayırmalı və dron idarə edəcək mütəxəssislər yetişdirməlidir".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Ərəb ölkələri niyə HƏMAS-la həmrəy olmadılar?..

**Bu suala cavab vermək elə də asan deyil. Ərəb dünyası həmişə ziddiyyətlərlə dolu olub, bura həmişə bir ayna kimi dünyanın bütün geosiyasi ziddiyyətlərini, qarşıdurmalarını və incəliklərini özündə əks etdirib.**

**Hüseynbala SƏLİMOV**



Amma indiki halda burada incə bir məqam var. Bəzi informasiya mənbələri Yaxın Şərqdə gedən müharibəni İsrail-HƏMAS müharibəsi adlandırmaqla elə də yanlışlığa yol vermirlər. Artıq üç yüz gündür ki, müharibə davam edir, amma səhv etmiriksə, Fələstin Muxtariyyəti səmtində bir güllə də atılmayıb.

Odur ki, bu, ən azı klassik anlamda, on illər ərzində adət etdiyimiz Fələstin-İsrail müharibəsi, hətta ərəb - İsrail müharibəsi də deyil və indiki qarşıdurmaya ərəb ölkələrindən hələki yalnız qeyri-ərəb siyasi vektorlarının təsiri altında olan bəzi ərəb dövlətləri cəlb olunub və yaxud da cəlb oluna bilərlər.

Gələcəkdə proses dəyişə, daha çox ərəb ölkəsi bu və ya digər dərəcədə ona qoşula bilər.

Belədə isə bütün hallarda HƏMAS lideri İ.Haniyənin öldürülməsi böyük əks-sədaya səbəb oldu. İranda, hətta qardaş Türkiyədə matəm elan olundu, məsələ gedib BMT-yə çıxdı. Üstəgəl, bu sətirləri yazan zaman regionun daha böyük müharibə ərəfəsində olduğu deyilirdi. İran bir neçə dəfə bəyan etmişdi ki, Haniyənin qisası alınacaq və İsrail vurulacaq.

ABŞ da müttəfiqi İsraili İranın zərbələrindən qorumaq üçün öz təkliflərini verirdi. Hətta İranın cavabının dəqiq tarixi də bildirilirdi: 5 avqust!..

Elə İsrailin özü də müəyyən narahatlıqlar yaşayırdı. Ən əvvəl onu deyək ki, bu ölkədə də xeyli müharibə əleyhidarı, baş nazir Benyamin Netanyahunun siyasətindən narazı olanlar var. Bəli, bu müharibə İsrailin apardığı bütün əvvəlki müharibələrdən fərqlənir. Ona görə yox ki, qarşıda çox güclü rəqib var. Yox, əbəttə, İranla mümkün müharibəni nəzərə almasaq, Təl-Əviv əvvəllər bundan da geniş spektrli müharibələr aparıb, eyni vaxtda bir neçə dövlətə qarşı vuruşubdur. Amma əvvəlki müharibələrin zaman hesabı bir neçə gün olurdu, onların ən məşhurlarından biri hətta "Altı günlük müharibə" adlanırdı. Bu müharibə isə bir ilə yaxındır ki, davam edir və yaxın müddətdə bitəcəyi hələ ki təxmin edilmir...

Ən böyük problem mümkün İran-İsrail müharibəsidir. Əslində region on illərdi ki, bu müharibəni gözləyir, "Bu gün başlayacaqlar, sabah başlayacaqlar" deyir. Amma eyni zamanda heç kim, hətta tərəflərin özü onun başlanmasını istəmir, çünki daha dəhşətli ola bilər. Ümid edirik ki, tərəflər hisslərini cilovlaya biləcək və region üçün çox böyük təhlükə ola biləcək müharibə bu dəfə də sovuşacaqdır.

Hazırkı vəziyyətdə İran özünü təhqir edilmiş sayır, çünki İ.Haniyə onun ərazisində qətlə yetirildi və bu, HƏMAS-ın İran üçün nə demək olduğundan, Haniyənin Tehran üçün necə bir mühüm adam olması məsələsindən heç də önəmsiz məqam deyil: təkcə xaricdə yox, elə İranın özündə də insanlar Tehranın cavabını gözləyir. Xatırladaq ki, İran bir neçə ay bundan əvvəl də belə bir vəziyyətdə olmuşdu - hamı gözləyirdi ki, Tehran Təl-Əvivə cavab verəcək. Cavab oldu, amma onda İsrail İranın raket hücumunu öz səmasında "atəşfəşanlıq" adlandırdı, çünki bu ölkəyə atılmış onlarla raketdən yalnız bir-ikisi onun "dəmir qübbə"sini dəf edib ölkə ərazisinə düşə bilmişdi.

Hətta onlar da elə bir itki, dağıntı törətməmişdi. O vaxt Tehran, necə deyərlər, dərinə getmədi. "Biz də İsraili vurduq!" deyib sakitləşdilər. Ümid edək, məsələ bu dəfə də qəlizləşməyəcək...

Sonda bir daha deyək ki, ərəb dövlətlərinin Fələstin məsələsində nisbətən loyallaşması, xüsusən də prezident D.Trampın dövründə onların bir neçəsinin İsraillə münasibətləri normallaşdırmağa çalışması İran, hətta qardaş Türkiyə üçün də bir növ siqnal olmalıdır - necə deyər, Roma Papasından artıq xristian olmağa dəyməz.

Bəzən belə fikir səslənir ki, ərəb monarxiyaları daha demokratik fələstinlilərin problemlərinə biganədir.Yox, məsələ bunda deyil, ən azı ona görə ki, fələstinlilər tərəfindən də hər hansı bir xüsusi demokratiya nümayişi görməmişik. Belə deyilir ki, HƏMAS Qəzzada "seçki" yolu ilə hakimiyyətə gəlib. Ola bilər. Amma Qəzza bir tərəfə, hətta daha mötədil siyasət yürüdən Fələstin Muxtariyyətində elə bir demokratiya-filan yoxdur, neçə illərdir, eyni bir adamı - Mahmud Abbası görürük.

Üstəlik, burada bir məqam da vardır: radikal HƏMAS bəlkə də fələstinlilər üçün daha çox "çalışır", amma ssenari dəyişmir: radikallar Fələstin məsələsində normallaşmanı bloklayır və müharibəyə, qarşıdurmaya səbəb olurlar. Sonu da bu olur ki, axırda hamı müharibəni və qarşıdurmanı kimin başlatdığını unudur və o haya qalırlar ki, heç olmasa, dinc fələstinliləri müharibənin əlindən qurtarsınlar. Radikallar özləri də qəhrəmanlardan "dinc məzlum"lara, "fədailə"rə çevrilirlər.

Rəhmətlik Ərəfat da deyirdi ki, İsrail tanklarının qarşısına fələstinli uşaqları çıxaracam, amma axırda İsraillə oturub danışmağa qərar verdi. Bəlkə HƏMAS kimi radikallar üçün də dərs olmalıdır bu? Bəlkə həqiqətən də danışmağın, danışa bilənləri irəli verməyin vaxtıdır? Axı sirr deyil ki, HƏMAS-la Fələstin Muxtariyyəti arasında da böyük ziddiyyətlər var...

# Ermənilər Roma Papasına qarşı - bir məqalə ilə faş olan böyük yalan

## Ceyhun Məmmədov: "Bu, olduqca önəmli, vacib məsələdir və bu gün bu istiqamətdə işlərin görülməsi və həyata keçirilməsi də olduqca zəruridir"

**Ötən ay Vatikan dövlətinin rəsmi qəzeti "L'Osservatore Romano" Qarabağdakı erməniləşdirilmiş alban abidələri haqda "Xristianlığın köklərində. Azərbaycanda Alban Apostol Kilsəsinin izində. Qədim Qafqaz Albaniyasına səyahət" adlı obyektiv yazı dərc edib.**



"Məqalə maraqlı, faktlarla doludur və müasir Azərbaycan ərazisində yerləşən qədim kəndli dövlətindən - Qafqaz Albaniyasından bəhs edir. Bu dövlətdən qədim kilsələr, monastırlar, məbədlər miras qalıb. Qarabağdakı qədim məbədlər və monastırlar ermənilərə yox, məhz albanlara məxsusdur. XIX əsrin ikinci yarısında Çar Rusiyası etnik erməniləri Osmanlı İmperiyası və İrandan kütləvi şəkildə Qarabağ və İrəvan xanlıqları torpaqlarına köçürdükdən sonra burada tikilmiş məbədlər istisnadır.

Elmi ictimaiyyət bu məqaləni başa düşülən diqqətlə qarşıladı. Qafqaz Albaniyasının tarixinə dair materiallar mətbuatda istədiyimiz qədər dərc olunmur. Üstəlik, xatırladaq ki, "L'Osservatore Romano" Vatikanın əsas mətbu orqanıdır. Müasir Azərbaycan ərazisində eramızın əvvəlində hansı xristian dövlətinin yerləşdiyini isə Vatikan çox gözəl bilir. Bundan başqa, Vatikanın ən zəngin arxivlərində bununla bağlı tarixi sənədlər yetərincə çoxdur", deyə müəllif yazır.

Məqalədə vurğulanır ki, bir çoxları bu barədə danışmağı sevməsə də, Cənubi Qafqazı özünə birləşdirən Rusiya imperiyası Alban kilsəsinin əmlakını erməni ruhanilərinə verib.

"Alban kilsəsinin qədim arxivləri sadəcə yandırıldı. Olsun, tarixçilərin də yaxşı bildiyi kimi, hər şeyi məhv etmək mümkün deyil. Öz arxivinizi öyrənə bilərsiniz, lakin sizə sərf etməyən sübutlar başqalarında qalacaq. Bu gün "L'Osservatore Romano" öz auditoriyası üçün tarixi həqiqətə girişi bərpa edir. Əlbəttə ki, elmi faktlarla və arqumentlərlə zəngin olan bu cür məqalə Fransa mətbuatında dərc oluna bilərdi. Erməni diasporuna qarşı çıxmaqdan ən çox burada qorxurlar.

Ermənilər arasında isə reaksiya olduqca gözlənilməz oldu. Misal üçün, "Ermənistan Avropa Partiyası"nın rəhbəri Tiqran Xzmalyan "L'Osservatore Romano"nun Qarabağ ermənilərinin xristian irsi haqqında ciddi araşdırma yazmasını arzu etməklə yanaşı, Qafqaz Albaniyası haqqında məqalə dərc etdiyini də bildirib", - məqalədə deyilir.

**Müəllif qeyd edir ki, Qafqaz Albaniyası haqqında istənilən məlumata erməni mühitində olduqca əsəbi reaksiya verilir.**

"Bunun səbəbini anlamaq olar. "Qədim erməni kilsələri və monastırları" Ermənistanın Azərbaycan Qarabağına qarşı ərazi iddialarına haqq qazandırmaq üçün bəlkə də əsas arqumentdir. Düzünü desək, tanınmış sərhədlərin və beynəlxalq hüququn mövcud olduğu dünyada "bu, 1000 il əvvəl bizə məxsus idi!" üslubunda arqumentlər təyinatı üzrə işləyə bilməz. Bu cür boş əsasla Almaniya Elzas və Lotaringiyaya, Böyük Britaniya Bretana iddia edə bilər, İspaniyanın cənubunu keçmiş Kordova xilafətinə, məsələn, Mərakeşə vermək lazımdır, İtaliyaya keçmiş Roma İmperiyasının bütün ərazisinə iddia edə bilər...

Lakin gəlin realist olaq, Azərbaycanın Qarabağı ilə bağlı dünya ictimaiyyəti çox uzun müddət tanınmış sərhədləri və hətta BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsini tələb edən dörd qətnaməsini görməzdən gəlməyi seçdi. İndi Qarabağın qədim xristian kilsələri və monastırlarının heç də ermənilərə məxsus olmadığı üzə çıxırsa, o zaman İrəvan "danışan təbəqəsi"nin narahatlığı üçün əsas var. Xüsusən Qafqaz Albaniyasından "L'Osservatore Romano" yazırsa. Üstəlik, Ermənistanın Qarabağa qarşı iddiaları heç də gündəmdən düşməyib. Sosial şəbəkələrdə yazılanlarla tanış olmaq kifayətdir, misal üçün, Aram Qabrelyanov yazır: "Mən həmişə deyirəm ki, Ermənistan və "artsax"ın öz torpaqlarını geri qaytarmaq şansı hələ də olacaq. Türkiyə-İsrail münaqişəsi hələ başlanğıcdır. Şans olacaq və ondan istifadə etmək lazımdır. Lakin Paşinyan və onun kamarilyasının rəhbərliyi altında vətən xainləri ilə heç bir şans yoxdur. Əvvəlcə Paşinyanı çıxarmaq, sonra isə "artsax"ı qaytarmaq lazımdır!" Bu personajın "qovmağa" çağırdığı Paşinyan isə konstitusiya islahatlarını hər vəchlə ləngidir və Ermənistan konstitusiyasından Azərbaycanın Qarabağına qarşı iddiaları çıxarmır", - materialda deyilir.

**Müəllifin sözlərinə görə, bütün bu təcavüzkar siyasətdə "Böyük Ermənistan" haqqında nəzəriyyələrlə baş-ayaq çevrilmiş tarixşünaslıq, qonşu dövlətlərin ərazilərini "tarixi erməni torpaqları" elan etmək və s. mühüm rol oynayır.**

"Təbii ki, Ermənistanın özünün informasiya və elmi məkanını nəzarət altında saxlamaq revanşistlər üçün çətin deyil. Ancaq eynisini Vatikan mətbuatı ilə etmək daha çətin işdir. Nəticədə cənab Xzmalyan hiddətlənir: buna necə yol verildi? Niyə bunun qarşısı alınmadı?! Hara baxırdılar?!! Maraqlıdır, lakin əslində xzmalyan bəylər əmindirlər ki, bütün dünya mətbuatında öz senzuralarını qura, tarixi faktları diz çökdürə, üzr istəyirəm, bilərlər! Tarixi faktlar nə edə bilər, boşuna iddia edə bilərlər ki, Azərbaycan, Gürcüstan, Türkiyə, İran ərazilərinin böyük bir hissəsi Ermənistana məxsus olmalıdır!

Bu, cənabları kədərləndirsə də, arxiv sənədləri və elm tərəfindən tanınmış tarixi faktlar əsasında məlumatları Fransa və digər ölkələrin ictimaiyyətinə təqdim etməyə davam edəcəyik. Hamı da bununla barışmalı olacaq".

Qeyd edək ki, məqalə erməni separatçı-revanşistləri və saxta "tarixçi alimləri" nəinki özlərindən çıxarıb, hətta dəli edib.

Neçə vaxtdır erməni mediası, yalançı tarixçilər bir-birinin ardınca həmin qəzetin ünvanına hədyanlar yağdırır, onu və Vatikanı Azərbaycana satılmaqda suçlayırlar. Roma Papasına ard-arda müraciətlər olunur, ondan məsələyə müdaxilə, qəzetdən isə üzrxahlıq tələb edirlər.

Son olaraq, erməni Apostol Kilsəsinin "artsax yeparxiyası" bunu sırtıqcasına "tarixin təhrifi və Azərbaycan təbliğatına xidmət" adlandırıb. Guya "belə yalançı təbliğat erməni xalqına və bütövlükdə dünya xristian sivilizasiyasının tarixinə hörmətsizlikdir".

Ermənilərin həşiri, qorxusu, təlaşı, həyasız dirənişi və ənənəvi böhtanları əlbəttə ki, anlaşılandır. Söhbət təkcə tarixi həqiqətləri əks etdirən məqalənin ilk dəfə xristian katolik dininin nüfuzlu mərkəzi Vatikanın dövlət qəzetində dərcindən getmir (məqalə müəllifi Qarabağda da olub). Bu öz yerində.

Məsələ ondadır ki, Qarabağdakı xristian abidə və məbədlərinin mütləq əksəriyyətinin albanlara məxsus olduğunun təsdiqi ermənilərin burada köklü (aborigen) etnos olmadığına, əraziyə köçürüldüyünə şəkk-şübhə saxlamayacaq. Beləcə, onların Azərbaycana torpaq iddialarında on illərlə istifadə etdikləri əsas "arqumenti" kəsərsiz hala gətirəcək.

Bəs alban abidləri üzərində çoxəsrlik erməni saxtakarlıqlarını tam sübut etmək və onları əsl görkəminə qaytarmaq mümkün olacaqmı? Bu yöndə işlər nə yerdədir? Haylar hansı "tarixi faktlar"dan dəm vururlar? Papa onlara reaksiya verəcəkmi?

**Mövzu ilə bağlı VI çağırış Milli Məclisin deputatı Ceyhun Məmmədov "Yeni Müsavat"a danışıb:** "Çox təəssüf ki, Ermənistan uzun illər bu yanlış təbliğatı aparırdı və duya ictimaiyyətini də çaşdırmağa, göstərməyə çalışırdı ki, guya həmin abidələr erməni abidələridir, onun həqiqi sahibi ermənilərdir. Lakin Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra davamlı olaraq cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində bütün dünyaya bir daha agah oldu ki, bu abidələr alban abidələridir və azərbaycanlılara məxsusdur.

Əlbəttə ki, bu cür məqalənin Vatikanda dərc edilməsi böyük bir uğurdur və ermənilərin əsrlərdir apardığı yalan təbliğata ən güclü cavabdır. Nəzərə alsaq ki, Roma katolik kilsəsi bu gün xristianlığın əsas mərkəzlərindən biri hesab olunur və orada belə bir yazının dərc edilməsi bütün dünya tərəfindən diqqətlə izlənilən, baxılan məsələdir, əlbəttə ki, belə olan halda bu məqaləyə bütün dünyanın reaksiyası olacaq və bu erməniləri ciddi şəkildə narahat etməkdədir. Onlar bundan çox əsəbiləşib və çalışırlar ki, haqlı olduqlarını dünyaya sübut etsinlər. Əslində isə bütün dünya da bilir, tarixi mənbələr də onu göstərir ki, bu ərazilər Azərbaycan əraziləridir və azərbaycanlılara məxsusdur və ermənilərin bu addımları yalnız saxtakarlıqdır və saxtakarlıqdan başqa bir şey deyil.

Bir daha qeyd etmək istərdim ki, bu məsələdə Azərbaycan dövlətinin apardığı siyasət, eləcə də Heydər Əliyev Fondunun gördüyü işlər, keçirdiyi tədbirlər, konfranslar, eyni zamanda Azərbaycan dövlətinin Vatikanla yüksək əlaqələri bu prosesə birmənalı olaraq öz töhfəsini verir. Bu, olduqca önəmli, vacib məsələdir və bu gün bu istiqamətdə işlərin görülməsi və həyata keçirilməsi də olduqca zəruridir.

Beləliklə, artıq Ermənistan ifşa olunur, gələcəkdə də ifşa olunmağa davam edəcək və biz də erməni yalanlarına qarşı işlərimizi davam etdirməliyik. Çünki uzun illər ermənilər bu istiqamətdə böyük işlər aparıb, çox sayda kitablar nəşr ediblər, Vikipediyada bu istiqamətdə çox böyük məlumatlar yerləşdirməyə çalışıblar.

Məlum məsələdir ki, Ermənistan yenə də eyni prosesə davam edəcək, eyni saxtalaşdırmaları etməyə çalışacaq. Ona görə biz də bu istiqamətdə çalışmalıyıq. Təkcə Vatikanda deyil, digər ölkələrdə də bu tip yazıları davamına, çapına nail olmalıyıq və Ermənistanın ifşası məsələsi ilə bağlı davamlı olaraq işlər görməliyik. Bundan sonra biz öz məqsədlərimizə, hədəflərimizə doğru inamlı addımlayacağıq".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**



## Səfirlik: "Azərbaycan Kəşmir probleminin sülh yolu ilə həllini dəstəkləyir"

**"Azərbaycan Cəmmu və Kəşmir probleminin sülh yolu ilə həllini dəstəkləyir".**

APA-nın məlumatına görə, bu barədə Azərbaycanın Pakistandakı səfirliyinin X hesabında paylaşım edilib.

Bildirilib ki, Azərbaycan tərəfinin mövqeyi bu problemin BMT Təhlükəsizlik Şurasının qətnamələri, eləcə də beynəlxalq hüququn norma və prinsiplərinə tam şəkildə riayət etməklə həllindən ibarətdir.



# Tarixi qələbə üçün bilet

**Zamin HACI**
zaminhaci@gmail.com

**“Xoşbəxtlik pulda deyil, onun miqdarındadır”**
*(ingilis yumoru)*

**Dövlət şirkətlərindən biri olimpiadada qalib gələn yoldaşlara pulsuz bilet hədiyyə edib, zəhmətkeşlərimizin bəziləri bundan narazı qalmışdır. Deyirlər o boyda şirkətə belə balaca hədiyyə yaraşmır. Gərək illik, bütün istiqamətlərə bilet veriləymiş.**

Məncə? bu da azdır. Təklif edirəm ömürlük bilet verilsin. Çempionların təkcə özlərinə yox, bütün qahım-əqrəbalarına da. Məşqçilərinin nəvə-nəticələrinə qədər. Hətta çempionun kəndçilərinə fərdi maşın ayrılmalıdır, təbii ki, dövlət hesabına.

Əziz yoldaşlar, vallah, mən sizin məntiqinizi anlamıram. Kiməsə böyük hədiyyələr veriləndə eyni adamlar ağlaşma qururlar, deyirlər dövlət əmlakı dağıdılır, bu nə israfçılıqdır, ay haray, uşaq pulu, pensiya yaşı, əməkdar artistin təqaüdü, AYB qurultayı və sairə və ilaxır. İndi dövlət şirkəti haqlı olaraq, bəlkə həyatında ilk dəfə dövlət pullarını qənaətlə xərcləmişdir, “xəsis”, “simic” damğasının biri bir qəpikdir.

Molla Nəsrəddinin bir lətifəsi var, eynilə onun vəziyyətidir. Molla Nəsrəddinlə oğlu səfərə çıxırlar. Molla uşağı eşşəyə mindirir, özü piyada gedir. Qarşıdan gələn bir dəstə adam gileylənir: “Bu da indiki cavanlar. Heç böyüyə hörmət etmirlər. Sağlam cavan eşşəyə minib, ancaq yazıq qoca piyada gedir”. Bu sözdən utanan uşaq düşür, molla eşşəyə minir. Qarşıdan gələn başqa bir dəstə deyir: “Bunlara baxın! O boyda kişi eşşəyə minib, yazıq uşaq isə piyada gedir”. Bu sözdən sonra hər ikisi eşşəyə minir. Yenə bir topa adam rast gəlir: “Vay-vay... İki adam minib eşşəyə, yazıq heyvanın nəfəsi kəsilir”. Camaatın sözünü kəsmək üçün bu dəfə nə molla, nə də uşaq eşşəyə minir. Piyada yola düzəlirlər. Qarşıdan gələn digər dəstə deyir: “Bu axmaqlara baxın. Günün altında piyada gedirlər, atıla-atıla gedən eşşəyə minmirlər”.

Lətifə bununla bitmirdi ki? Axırda molla hirslənirdi, uzunqulağı özü belinə alırdı.

Təbii ki, biz hələ axırıncı mərhələyə çatmamışıq, heç kim heç nəyi dalına almayacaqdır, bu deyinmələr də sakitliklə başa çatacaqdır. Ancaq mən səmimi etiraf edim, şəxsən bu çempion hay-küylərini anlamıram. Kimsə yarışı qazanıb, afərin. Alqışlayırıq. Uğurdur, bayrağı qaldırıb, himn oxunub və sairə. Lakin bütün hallarda bu qalibiyyətlər şəxslərin uğurlarıdır. Dövlət isə müəyyən məbləğdə mükafat ödəyib əslində öz milli atributlarının, simvollarının reklam haqqını verir.

İdmana gələndə, tibbi-fizioloji baxımdan da idmanla peşəkar şəkildə məşğul olmaq sağlamlığa daha çox ziyandır, nəinki xeyirlidir. Hətta bəzən görürsən kimsə deyir: “Filankəs tarixi qələbə qazandı”. Pah. Hansı tarixdən söhbət gedir? Yox, əşşi, bəşəriyyəti xilas etmişdir... Keçən dəfəki olimpiadada çempion olanların neçəsinin adı dünya xalqlarının dilində əzbərə dönmüşdür?

İdman oyunlarına, adından göründüyü kimi, oyun olaraq baxmaq lazımdır, vəssalam. Uşaqlar, gənclər sağlam böyüsün deyə daha çox idman qurğuları düzəltməliyik, kasıb əhalinin bu qurğulara çıxış imkanları olmalıdır.

Təzəlikcə Abşeron yarımadasında bir restoranda (adı nəsə “Skelet”ə oxşayırdı - yəqin müştərilərin içəridən sümüyü çıxdığı üçün) adamın dərisinə saman təpmiş, 1 kilo qarpızı 492 kilo qarpızın puluna satmışdılar. O da şikayətlərini jurnalistlərə bəyan etmişdi.

Halbuki niyə ağlaşma qururuq? Ucuz ətin şorbası olmaz məsəlini elə biz düzüb-qoşmuşuq. Bura Şərqdir, burada bahalılıq həmişə yüksək hörmət əlaməti sayılır. Adamları geyiminə görə qarşılamışıq, ağlımız olmadığı üçün. Elə ağlımız olmadığı üçün də həmin adamları ağlına görə yola sala bilməmişik, əksinə, girib evimizin daimi sakinləri olmuşlar.



# "F-16"lar Ukraynada: Krım körpüsü bu yay dağıdılsa... - sülh şərtləri qəlizləşir

## Atəşkəs əldə olunması çağırışları səsləndiyi vaxtda Zelenski "F-16" qırıcılarının gəldiyini videogörüntülərlə təsdiqlədi və savaşın şiddətli fazası başladı - təhlil

**Ukrayna prezidenti Volodimir Zelenski Kiyev vilayətindəki Vasilkov aerodromundan "F-16"ların videosunu yayımlayıb. “Yeni Müsavat” bildirir ki, o, "F-16" qırıcılarının respublika ərazisinə gəldiyini videogörüntülərlə təsdiqləyib. Onun sözlərinə görə, ukraynalı pilotlar artıq texnikadan istifadə etməyə başlayıblar. ""F-16"lar Ukraynadadır. Biz bunu təmin etdik”, - deyə Zelenski bildirib. O həmçinin ABŞ, Danimarka və Hollandiyaya Ukraynanın döyüş təyyarələrinin verilməsi xahişini qəbul etdiklərinə görə təşəkkür edib. İlk Ukrayna "F-16" qırıcıları qısa və orta mənzilli hava-hava raketləri ilə təchiz edilib. Təyyarələr pilotsuz təyyarələrə və qanadlı raketlərə qarşı mübarizədə istifadə olunacaq. Ukrayna artıq Qərb ölkələrindən 10 ədəd "F-16" qırıcı təyyarəsi alıb, ilin sonunda Kiyevə verilən "0F-16"ların sayı 20-yə çatacaq. “The Economist” jurnalı bu barədə məlumat yayıb. Nəşr yazıb ki, Ukraynanın ümumilikdə Qərbdən 79 "F-16" alması gözlənilir. Bu qırıcı təyyarələrin qalan qisminin 2025-ci il ərzində mərhələlərlə çatdırılması nəzərdə tutulub.**

Rusiya qoşunları isə Kramatorsk və Toretskdə aktivləşiblər və Pokrovski istiqamətində fəal şəkildə irəliləyirlər. Bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb. Bildirilib ki, ötən gün ərzində cəbhədə Rusiya işğalçı qüvvələri ilə 103 hərbi toqquşma baş verib. Ruslar Ukraynada 42 hava hücumu həyata keçirib, 515 kamikadze pilotsuz uçan aparat buraxıb və hərbi mövqelərə və yaşayış məntəqələrinə 3400 hücum gerçəkləşdirib. Məlumatda ağır döyüşlər getdiyi vurğulanıb.

Ukrayna ilə bağlı sülh danışıqları ətrafında ziddiyyətli durum davam edir. Sözsüz ki, hamı sülh arzulayır. Amma hər ölkə, yaxud güc mərkəzi öz mənafeyi çərçivəsində. O cümlədən Kiyev qanlı müharibəyə son qoymaqda bəlkə də hamıdan çox maraqlıdır. Ancaq nəyin bahasına? Əsas sual budur. “Ukraynalılar Rusiyaya qarşı qəhrəmancasına müqavimət göstərirlər, lakin müharibə artıq yekunlaşmaq üzrədir”. Belə bir açıqlamanı Macarıstanın müdafiə naziri Kristof Şalay-Bobrovnik verib. Onun sözlərinə görə, sülh Rusiyanın xeyrinə olacaq: “Mən bir əsgər kimi ukraynalıların qəhrəmanlıq və cəsarətli mübarizəsinə böyük hörmətlə yanaşıram, lakin sülh danışıqlarındakı səylər göstərir ki, müharibə sona yaxınlaşır”. Nazir hesab edir ki, Rusiya hərbi sənaye qura bilib və bununla da özünü lazımi səviyyədə sursat, canlı qüvvə və tanklarla təmin edib.

Doğrudanmı müharibə bitmək üzrədir? Aydındır ki, Ukrayna ABŞ başda olmaqla, kollektiv Qərb üçün nə İraqdır, nə də Əfqanıstan. Bu, Avropadır. Eyni zamanda Vaşinqton üçün onun dünyadakı imic məsələsidir. O zaman ABŞ sülhün Rusiyanın xeyrinə olmasına necə imkan verə bilər? İkincisi, Rusiya doğrudanmı hərbi sənaye qura bilib və bununla da özünü lazımi səviyyədə sursat, canlı qüvvə və tanklarla təmin edir? Üçüncü yandan, bəllidir ki, Qərb dövlətlərinin toplam hərbi sənaye potensialı Rusiyadan qat-qat böyükdür. Yetər ki, o hərəkətə gətirilsin. Gətiriləcəkmi, "F-16"nın davamı gələcəkmi? Bu arada Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəisi Kirill Budanov yaxın aylarda Krım körpüsünün dağıdılacağını mümkün saydığını deyib. O halda sülh danışıqlarını nə gözləyir?

Bəli, Ukrayna prezidenti Zelenski "F-16" qırıcılarının ilk partiyasının alındığını təsdiqləyib. Lakin bu il Ukraynanın 10-dan çox "F-16"dan istifadə edə bilməsi çətin məsələdir. Bu barədə “Nyu York Tayms” məlumat yayıb. “Qərbdən çoxdan gözlənilən reaktiv təyyarələrin gəlişi ölkənin müdafiəsini gücləndirmək üçün vacibdir, baxmayaraq ki, Kiyev döyüş meydanına dərhal təsir göstərmək üçün çox az təyyarə alıb”, - məlumatda bildirilib. Qeyd olunub ki, Qərb təyyarələrinin gəlişi Rusiyanın döyüş meydanında aylarla yavaş, lakin davamlı irəliləyişləri və ölkənin elektrik şəbəkəsinə sarsıdıcı hücumları ilə ukraynalıların zəifləmiş əhval-ruhiyyəsini qaldıracaq: “Bu təyyarələrin gəlməsi həm də rus pilotlar üçün yeni təhlükə yaradacaq və onları cəbhədə hücumlardan çəkindirməyə kömək edəcək. "F-16"ların Ukraynanın Rusiya raketlərini vurmaq qabiliyyətini də yaxşılaşdıracağı gözlənilir. Bununla belə, mütəxəssislərin fikrincə, təlim keçmiş pilotların çatışmazlığı və məhdud sayda "F-16" Kiyevə döyüş meydanına dərhal təsir imkanı vermir”.

**Professor Qabil Hüseynlinin “Yeni Müsavat”a bildirdiyinə görə, müharibə dayanmayacaq, "F-16" qırıcılarının tədarükü də bunu təsdiqləyir. Onun fikrincə, masaya oturulması üçün perspektiv görünmür, çünki şərtlər qəbul olunmur:** “Rusiya işğal etdiyi ərazilərin onun tərkibində qalmasını və Kiyevin Alyansa üzvlükdən imtinasını tələb edir. Buna Zelenski razı olmayacaq. Əgər danışıqlar dövründə şərtlər dəyişərsə, sülh üçün fürsətlər yarana bilər. Hazırkı şərtlər isə alçaldıcıdır və kapitulyasiya çağırışıdır. İkincisi, Ukrayna üçün ikinci sülh konfrasında Rusiyanın iştirakı gözlənilsə də, Peskov bunun gündəmdə olmadığını açıqlayıb. Deməli, Moskva müharibənin ən azı noyabra qədər uzanmasında maraqlıdır. Kreml ümid edir ki, Tramp qalib gələcək və danışıqlar platformasında Rusiyanın maraqlarına uyğun yeni şərait yaranacaq”.

**Q.Hüseynli hesab edir ki, "F-16" qırıcıları müharibəyə yeni rəng qatacaq və qarşıda daha şiddətli döyüşlər gözlənilir:** “Peskov onu da deyir ki, bu qırıcılar cəbhədə heç nəyi dəyişməyəcək. Rus analitikləri isə əmindir ki, bu qırıcıların qarşısına S-300, S-400, S-500 kimi sistemlərlə çıxa biləcəklər. Mən isə buna əmin deyiləm və düşünmürəm ki, Rusiya duruş gətirə biləcək. Ona görə də Çeçenistan prezidenti Kadırov "F-16" qırıcıları haqda danışarkən deyib ki, əlimizi düyməyə basa bilərik. Yəni dünyanı nüvə bombası ilə təhdid edir. Ancaq bu da blefdir və müharibə güclənəcək. Kollektiv Qərb Rusiyanı strateji məğlubiyyətə uğratmaq üçün bu prosesdən kənara çəkilməyəcək. Rusiyanın resurslarının tükəndirilməsi üçün bu mübarizə davam edəcək”.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

# Kritik tarix: 12 avqust, yoxsa... - yeni müharibənin "ayaq səsləri"

## Regionda dəhşətli hadisələrin proqnozu verilir; İran-İsrail qarşıdurması ağır fəsadlar verə bilər; politoloqlar İranın reallıqlarla barışmağa məhkum olduğunu deyir

**"Axios" portalının yazdığına görə, ABŞ və İsrail rəsmiləri İranın avqustun 5-də gecə İsrail ərazisinə zərbələr endirəcəyini gözləyirlər. "Üç Amerika və İsrail rəsmisi bildirib ki, onlar İranın bazar ertəsi İsrailə hücum edəcəyini gözləyirlər", - portal qeyd edib.**

"The Jerusalem Post" isə yazıb ki, İran yəhudi xalqı üçün müqəddəs fəlakət günü olan 12-13 avqust tarixlərində İsrailə hücum etməyi planlaşdırır. Hücumun "Hizbullah" hərəkatı ilə birgə həyata keçiriləcəyi qeyd edilir. Digər təfərrüatlar verilmir.

"Axios" həmçinin öz mənbələrinə istinadla bildirir ki, ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) rəhbəri general Maykl Kurilla avqustun 3-də Yaxın Şərqə gəlib və bir sıra Körfəz ölkələrinə, İordaniyaya və İsrailə səfər edərək, İranın potensial zərbəsini birgə dəf etmək üçün beynəlxalq və regional müttəfiqləri səfərbər etməyə çalışacaq. Nəşrin yazdığına görə, Kurillanın səfərinin əsas istiqaməti İordaniya olmalıdır, çünki bu ölkə aprelin 13-də İsrailə doğru uçan İran PUA-larının tutulmasında böyük rol oynamışdı.

İran prezidenti Məsud Pezeşkian paytaxt Tehrana səfər edən İordaniyanın xarici işlər naziri Ayman əs-Safedini qəbul edib.

Pezeşkian görüşdə İranda rəsmi qonaq olan HƏMAS Siyasi Bürosunun rəhbəri Haniyənin öldürülməsinin beynəlxalq hüququn pozulması olduğunu bildirib və bu sui-qəsdi "İsrail rejiminin cavabsız qalmayacaq böyük səhvi" kimi qiymətləndirib.

Digər tərəfdən, İran diplomatik kanallarla bölgə ölkələrinə İsrailə qarşı cavab hücumuna müdaxilə etməyə çalışacaqları təqdirdə onların da hədəfə alınacağını çatdırıb.

İranın xarici siyasətində regionda və dünyada sabitliyin prioritet təşkil etdiyini bildirən Pezeşkian İsrailin fələstinlilərə qarşı hücumlarının dayandırılması üçün İslam ölkələrinin birgə fəaliyyət göstərməsinin vacibliyini vurğulayıb.

İran regionda münaqişənin alovlanmasının əleyhinədir, lakin İsrail tərəfi etdiklərinə görə cavab verməlidir.

APA-nın "Al-Arabiya"ya istinadən məlumatına görə, bu barədə adıçəkilən ölkənin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Nasir Kənani jurnalistlərə bildirib.

Bununla belə, o deyib ki, ölkəsi Yaxın Şərq regionunda gərginliyi artırmaq niyyətindən uzaqdır.

Bu arada qeyd edək ki, avqustun 5-də Rusiyanın Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu Tehrana gedib.

APA-nın TASS-a istinadən xəbərinə görə, səfər çərçivəsində bir sıra yüksək vəzifəli şəxslər görüşlər nəzərdə tutulub.



Belə ki, S.Şoyqu adıçəkilən ölkənin Milli Təhlükəsizlik üzrə Ali Şurasının rəhbəri Əli Əkbər Əhmədian və Silahlı Qüvvələrin Baş Qərargahının rəisi Məhəmməd Baqeri ilə danışıqlar aparacaq. İran prezidenti Məsud Pezeşkianın da Şoyqunu qəbul edəcəyi vurğulanıb.

Danışıqlar zamanı ikitərəfli əməkdaşlığın geniş spektri və onun gücləndirilməsi - təhlükəsizlik sahəsindən ticarət-iqtisadi layihələrə, eləcə də qlobal və regional təhlükəsizliyin müxtəlif aspektlərinə qədər məsələlər müzakirə olunacaq.

Bu qarşıdurmanın Azərbaycana mümkün yaxın və uzaq təsirləri nə ola bilər? İranla İsrail arasındakı böyük müharibə təhlükəsi sovuşdumu?

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifov "Yeni Müsavat"a bildirdi ki, İran on illərdir ki, ABŞ və İsrailin hədəfindədir:** "HƏMAS-ın siyasi lideri İsmayıl Haniyənin iyulun 31-də İranın paytaxtında öldürülməsi sıradan bir hadisə deyil. Bu hadisə İrana edilən son xəbərdarlıq kimi dəyərləndirilməlidir. İran artıq on illərdir ki, Yaxın Şərqdə fəaliyyət göstərən terrorçu dəstələri maliyyələşdirməklə bölgədə gərginliyin aradan qaldırılmasına imkan vermir. Onun son onilliklər ərzində bu məqsədlə 300 milyard dollara qədər vəsait xərcləməsi İsraili və ABŞ-ı ciddi narahat edir. Digər tərəfdən, İran bütün imkanlarını bir araya gətirib nüvə silahına sahiblənmək istəyir. Bəzi məlumatlara görə, İran nüvə silahını artıq əldə edib və ya bunun bir addımlığındadır. Bölgədə terroru maliyyələşdirən bir ölkənin nüvə silahına yiyələnməsinin nə demək olduğunu böyük güclər çox yaxşı anlayırlar və bunun fərqindədilər. İsrail bununla bağlı son bir neçə ildə ABŞ və Avropa İttifaqını ciddi xəbərdar edib. Görünən budur ki, hadisələr özünün son partlayış nöqtəsinə yaxınlaşır. HƏMAS siyasi liderinin İranın paytaxtında öldürülməsindən sonra İranın İsrailə yenidən hücum edəcəyinə dair çağırışları qarşı tərəfi demək olar ki, elə də ciddi narahat etmir. Çünki bundan öncə İran İsraili raket və dron atəşinə tutmaqla öz hərbi gücünün hansı səviyyədə olduğunu bütün dünyaya nümayiş etdirmişdi.

Əhali sayı 90 milyona yaxınlaşan İrana qarşı genişmiqyaslı hərbi əməliyyatlar bizim üçün arzuolunan deyil. Belə hərbi əməliyyatlar Azərbaycanda humanitar fəlakət yarada bilər. Əhalisinin böyük əksəriyyətini Azərbaycan türkləri təşkil edən İranda hər hansı bir hərbi toqquşma milyonlarla insanın ölkəni tərk etməsi və onların böyük əksəriyyətinin ilk növbədə Azərbaycana üz tutması ilə nəticələnə bilər. Ukraynada baş verənlər buna yaxşı nümunədir. Bu gün Ukraynanı müharibə səbəbindən tərk edən milyonlarla insan Avropanı böyük bir qaçqın problemi ilə üzləşdirib".

**Deputat Bəhruz Məhərrəmov hesab edir ki, İran reallıqlarla barışmağa məhkumdur**: "İsmayıl Haniyənin Tehranda öldürülməsindən sonra, heç şübhəsiz ki, qüvvələr balansı və münasibətlər əvvəlki konfiqurasiyada davam etməyəcək. Aydındır ki, ilk növbədə bu proses İran-İsrail münasibətlərindəki dərin ziddiyyətlərdə özünü göstərməli idi. İsmayıl Haniyənin kim tərəfindən qətlə yetirilməsindən asılı olmayaraq insidentin İranın paytaxtında baş verməsi Tehran qarşısında dərin dilemma yaradır. İran sərt bəyanatlarla kifayətlənərək reallığla barışmalıdır. Bu da ya Tehran üçün ciddi məğlubiyyət əmsalı olacaq, ya da İsrailə qarşı konkret hərbi həmlələrlə İsmayıl Haniyənin Tehranda öldürülməsi ilə onsuz da ciddi zədələnmiş nüfuzunun bərpasını və kifayət qədər güclü hərbi-siyasi subyekt olduğunu dünyaya göstərməyə məhkumdur. İranla İsrail arasında gərgin ritorika 45 ildən artıqdır ki, davam etsə də, bu ölkələrin hərbi qarşıdurması faktiki olaraq müşahidə olunmayıb. Yalnız qısa müddət öncə İranın İsrailə raket və dronlarla hücumu artıq Tehranın bu ölkəyə mümkün yeni həmlələri istiqamətində presedentin mövcud olduğunu deməyə əsas verir. Son günlər İran mediasının bu istiqamətdə vahid mərkəzdən idarə olunan güclü təbliğatı isə yalnız təbliğat olaraq qala və boş güc göstərisi ola bilməz. Lakin əlbəttə, heç bir qarşıdurma, o cümlədən də İranın "qisas" xarakterli həmləsi bölgəyə yaxşı heç nə vəd edə bilməz. Onsuz da Yaxın və Orta Şərqin gərgin olan geosiyasi ab-havası, heç şübhəsiz ki, bütövlükdə regionda situasiyaya mənfi təsir edəcək. Bildiyiniz kimi, Azərbaycan konstitusion səviyyədə münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir. O cümlədən də biz ölkəmizin xarici siyasətində mühüm mövqe tutan İsrail və cənub qonşumuz, ərazisində 30 milyondan artıq azərbaycanlının yaşadığı İran arasında hərbi qarşıdurmanı arzulamırıq. Sirr deyil ki, həmsərhəd ölkədə müharibə bu və ya digər formada qonşusuna da müəyyən aspektlərdən təsirsiz ötüşmür. Düzdür, 2023-cü ilin may ayında möhtərəm Prezidentin Şuşadan müraciətində ifadə edildiyi kimi, Azərbaycan təhlükəsiz adadır. Təbii ki, heç bir təhdid sərhədlərimizi adlaya bilməz. Lakin qonşumuzda başlayan hərbi qarşıdurmanın iqtisadi, sosial istiqamətlərdə mümkün təsirini neytrallaşdırmaq o qədər də asan məsələ deyil. Qarşıdurma, eyni zamanda bölgəyə yad olan və uzun illər ərzində regionda qeyri-sağlam maraqlar güdən dövlətlər üçün də fürsət deməkdir. Bu və ya digər formada münaqişə tərəfi kimi prosesə qatılmaqda həvəsli olan iri beynəlxalq subyektlərin mümkün İran-İsrail münaqişəsindən yararlanmağa çalışacağı sirr deyil. Ona görə də 30 illik münaqişəyə hərbi-siyasi yolla birdəfəlik son qoymuş, dünya tarixində nadir bir nümunə kimi separatizmin kökünü kəsmiş beynəlxalq subyekt olaraq hər hansı dost, yaxud qeyri-dost dövlətlər arasında, ələlxüsus sərhədlərimiz yaxınlığında istənilən hərbi münaqişə ehtimalını arzulamır və regionda dayanıqlı sülh və sabitliyin bərqərar olmasını istəyirik".

**Deputat Azər Badamov sözlərinə görə, indiyə qədər İranla İsrail bir-birini əzələ nümayiş etdirməklə hədələyirdilərsə və ya dolayısı ilə müharibə aparırdılarsa, Tehranda HƏMAS lideri İsmayıl Haniyənin qətlindən sonra birbaşa toqquşma ehtimalı daha da böyüyüb:** "Hətta İranın ali dini lideri İsrailə cavabının çox ağır olacağını və bütün dünyanın yeni bir xəbərlə qarşılaşacağını bildirib. İranda silahlı qüvvələrin yerdəyişmə etdiyi, İsraildə isə potensial hücum təhlükəsi müşahidə edəcəyi təqdirdə İranı qabaqlayacağı və ABŞ hərbi gəmilərinin Fars körfəzinə gələrək növbə çəkdiyi bildirilir. Hətta müharibənin başlayacağı təqdirdə birləşmiş Qərbin İsrailə dəstək verəcəyi açıq-aydın şəkildə ifadə olunur.

Bütün bu baş verən proseslər onu deməyə imkan verir ki, İran-İsrail arasında böyük müharibə gözlənilir. Əgər müharibə baş verərsə, müharibənin əhatə dairəsi çox genişlənəcək. Yəni bu, ancaq İran və İsrail arasında müharibə ilə kifayətlənməyəcək. Nəticədə bu, nüvə müharibəsinə qədər uzana bilər. Ona görə də böyük güclər müharibənin qarşısının alınması üçün tədbirlər görməyə tələsməlidir. Çünki İran-İsrail müharibəsi Ukrayna-Rusiya müharibəsindən daha böyük masştabı əhatə edə bilər. Bu da, ümumiyyətlə, bəşəriyyət üçün böyük təhlükə deməkdir. Azərbaycan İsraillə dostdur və İranla da yaxın qonşudur. Həm də ölkəmiz müharibələri heç vaxt dəstəkləmir. Biz bütün münaqişələrin danışıqlar yolu ilə ədalətli şəkildə həll olunmasını dəstəkləyirik. Azərbaycan beynəlxalq hüququ dətəkləyir və İsrail-İran müharibəsinin baş verməsini arzulamır. Amma bu müharibə baş verərsə, bunun nəinki Azərbaycana, hətta bütün dünya iqtisadiyyatına və iqlimə böyük təsiri olacaq. Ona görə də dünya birliyi İsraillə İran arasında gərginliyin azalmasına və ümumilikdə Yaxın Şərqdə müharibənin dayanmasına xidmət edən addımların atılmasına tələsməlidir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 137 (8510) 6 avqust 2024

# Fond və xammal bazarları çökür - səbəb

## Azərbaycana hansı təsirləri ola bilər?

**HƏMAS lideri İsmayıl Haniyənin öldürülməsi Yaxın Şərqdə narahat münasibətləri daha da gərginləşdirib. Bütün dünya İranın İsrailə mümkün zərbələrini gözləyir. Son dərəcə gərgin siyasi-hərbi atmosfer, gözlənildiyi kimi, Yaxın Şərqin əsas məhsulu olan neftin qiymətlərinə artırıcı təsir göstərdi. Qısa müddətdə neft qiymətləri 78 dollardan 81 dollara qədər bahalaşdı. Lakin bu proses uzun sürmədi, 2 gündən sonra qiymətlər sürətlə düşməyə başladı. Hazırda Brent etalon markalı neftin bir bareli 75 dollar ətrafında dəyişir.**



Neft bazarında qiymətlərin düşməsinin əsas səbəbi kimi dünyanın iki ən böyük iqtisadiyyatına malik ölkələrdən - Çin və ABŞ-dan gələn xəbərlər göstərilir. Belə ki, Çinin Milli Statistika İdarəsinin (NSO) hesabatına əsasən, iyulda ölkənin istehsalat sektorunda satınalma menecerləri indeksi (PMI) ayında 49,4 bəndə qədər azalıb. Əvvəlki ay göstərici 49,5 bənd olmuşdu. Bundan əlavə, bu ilin yanvar-iyun aylarında Çin iqtisadiyyatına birbaşa xarici investisiyaların (XBİ) həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 29,1 faiz azalaraq 498,91 milyard yuana (68,7 milyard dollar) düşüb.

Avqustun 1-də məlum olub ki, iyulda ABŞ-ın istehsal sektorunda (ISM Manufacturing) işgüzar aktivlik indeksi iyundakı k48,5 bənddən 46,8 bəndə qədər azalıb və 2023-cü ilin noyabrından bəri ən aşağı səviyyəyə düşüb. Analitiklərin konsensus proqnozu 48,8 bəndədək artım nəzərdə tuturdu.

ABŞ-dan daha bir bədbin məlumat məşğulluq sahəsindən açıqlanıb. ABŞ Əmək Nazirliyinin açıqladığı statistikadan məlum olub ki, iyul ayında ölkə iqtisadiyyatında iş yerlərinin sayında 114 min artım qeydə alınıb. Yenidən işlənmiş məlumatlara görə, iyunda iş yerlərinin sayı əvvəllər bildirildiyi kimi 206 min yox, 179 min artıb. İyulda ABŞ-da işsizlik iyun ayındakı 4,1 faizdən 4.3 faizə yüksəlib. Bu, 2021-ci ilin oktyabr ayından bu yana ən yüksək səviyyədir.Trading Economics ekspertlərinin konsensus proqnozu iyul ayında iş yerlərinin sayının 175 min artacağını və işsizliyin 4,1 faiz səviyyəsində qalmasını nəzərdə tuturdu.

Qeyd edək ki, məşğulluq sahəsi Federal Ehtiyatlar Sistemi(FED) üçün monetar siyasət qərarlarının qəbulunda əsas göstəricilərdən biridir. İşsizliyin artımı tənzimləyicinin sentyabrda faiz dərəcələrini endirəcəyi ehtimalını artırır. Lakin eyni zamanda işsizliyin artımı ABŞ iqtisadiyyatında artım sürətinin yavaşımasının əlaməti hesab olunur.

Məhz ABŞ-da statistik göstəricilərin açıqlanmasından sonra dünya xammal və fond bazarlarında böyük volatillik meydana gəlib. Ötən həftənin sonlarında ABŞ və Avropa fond bazarlarında müşahidə olunan sürətli eniş bu həftənin ilk iş günü digər bazarlarda daha kəskin formada özünü büruzə verir. Belə ki, avqustun 5-də birjalarda ticarət başlanan kimi Cənubi Koreyanın əsas fond birjası indeksi KOSPI 8,7 faiz azalıb. Yonhap agentliyinin ticarət məlumatlarına istinadən yaydığı xəbərə görə, bu, 2008-ci ildən bəri müşahidə olunmayan haldır. Cənubi Koreya vonunun məzənnəsi də dollar qarşısında zəifləyib. Cənubi Koreya mediası bu bazar ertəsini birja üçün “ən pis gün” adlandırır. Sərt eniş birjanın fəaliyyətinin 20 dəqiqə müddətində dayandırılmasına gətirib çıxarıb.

Gün ərzində Cənubi Koreyanın ən böyük şirkətlərindən Samsung Electronics-in səhmləri 10,3 faiz, SK hynix 9,8 faiz, Hyundai Motor-unku isə 8,2 faiz ucuzlaşıb.

Dünən həmçinin İstanbul fond birjasında analoji hal yaşanıb: birja indeksləri 5 faizdən çox dəyər itirdiyinə görə ticarət yarım saatdan çox dayandırılıb. Ən çox bankların səhmlərində dəyərsizləşmə qeydə alınıb.

Afina fond birjasında da indeksin kəskin düşməsi qeydə alınıb. Qısa müddətdə 5 faizdən çox dəyərsizləşmə Yunanıstanın fond bazarında böyük təlatümə, investorların xaotik şəkildə səhmləri satmağa başlamasına səbəb olub.

Yaponiyanın əsas fond indeksi NİKKEİ 12,4 faiz, Tayvanda indekslər 8,4 faiz, Avropada 3 faizə yaxın dəyər itirib. ABŞ-da NASDAQ indeksinin 3 faiz düşməsindən sonra texnoloji nəhənglərin hesabına bu prosesin daha da dərinləşəcəyi gözlənilir. “The Economist” yazır ki, Amerika fond bazarlarındakı eniş süni intellektə olan ümidlərin özünü doğrultmaması ilə bağlıdır. Mütəxəssislər Microsoft, Alphabet, Amazon və Apple kimi ABŞ-ın texnologiya nəhənglərinin hesabatlarının dərcindən sonra belə nəticəyə gəliblər ki, investorların süni intellektlə bağlı əvvəlki eyforiyası sürətlə aradan qalxır.

"Financial Times" yazır ki, dünyanın ən böyük texnologiya şirkətləri 2024-cü ilin əvvəlindən kapital xərclərini 50 faiz artırıb, onların ümumi həcmi 100 milyard dollara çatıb. Sərmayə qoyuluşunun prioritet sahəsi süni intellekt sistemlərinin fəaliyyətini təmin edən infrastrukturun genişləndirilməsidir. Analitiklərin eləcə də investorların bu yatırımlarının özünü doğruldacağına inamı getdikcə azalır. Nəticədə, ABŞ-ın ən böyük texnologiya şirkətləri - Apple, Amazon, Microsoft, Alphabet (Google), Meta Plaforms və Tesla-nın səhmlərinin ucuzlaşması baş verir. Sonuncudan başqa bütün səhmlər artıq demək olar ki, 10 faiz ucuzlaşıb, Tesla isə 7,5 faiz itirir.

Fond indeksləri ilə yanaşı, kriptovalyutaların qiyməti də ucuzlaşır - Bitcoin (BTC) 15,93 faiz ucuzlaşaraq 52 582 dollara, Ethereum (ETH) isə 22,12 faiz ucuzlaşaraq 2 348,7 dollara düşüb. Rəqəmsal valyutalar ABŞ-da tənəzzül qorxusu fonunda bir neçə aylıq minimuma çatıb.

Göründüyü kimi, Yaxın Şərqdə gözlənilən qısamüddətli gərginləşmə belə Çin və ABŞ iqtisadiyyatındakı neqativ proseslərin xammal və fond bazarlarına mənfi təsirini önləyə bilməyib. Məsələn, Liviyanın ən böyük neft yatağı olan “Şərara”dan hasilatın məhdudlaşdırılmasına dair xəbərlər belə neft bazarına qiymətartırıcı təsir göstərə bilməyib.

Bəzi analitiklər fond bazarlarındakı volatilliyi müvəqqəti hesab edərək, xüsusilə ABŞ-da qəbul ediləcək siyasi qərarla aradan qalxacağını gözləyirlər. Bu baxımdan, tezliklə FED rəhbəri Cerom Pauellin sentyabrda uçot dərəcəsinin endiriləcəyinə dair açıqlama verəcəyi gözlənilir.

Azərbaycanda fond bazarının inkişaf etməməsi ölkə iqtisadiyyatını bu bazardakı volatilliyin birbaşa təsirindən qoruyur. Lakin Dövlət Neft Fondunun investisiya portfelinin mühüm bir hissəsi hazırda dəyərsizləşən texnologiya nəhənglərinin səhmlərinə yatırılıb. Bu baxımdan, həmin şirkətlərin səhmlərində ucuzlaşma Azərbaycanın əsas valyuta ehtiyatlarının toplandığı Neft Fondunun böyük itkilərə məruz qalmasına gətirib çıxara bilər. Belə ki, fondun təsdiqlənmiş investisiya siyasətinə əsasən, bu il onun investisiya portfelinin 25 faizə qədəri səhmlərə yatırıla bilər. Bu ilin birinci yarısında ABŞ texnologiya nəhənglərinə Neft Fondunun yatırımlarında ciddi artım edilib. Bu isə fond üçün riskləri daha da artırır.

Bundan əlavə, əsas gəlir mənbəyi neft ixracı olan Azərbaycan üçün neft bazarındakı qiymət fonu son dərəcə mühüm əhəmiyyətə malikdir. **İqtisadçı-alim Vüqar Bayramovun sözlərinə görə, dünyada tələbin azalması neft bazarına birbaşa təsir göstərərək volatilliyi artırıb**: “Digər tərəfdən, bu il ABŞ-da quyuların sayının azalmasına baxmayaraq neft hasilatında artımlar müşahidə edilir. Hazırda Birləşmiş Ştatlarda gündəlik neft hasilatı 13.3 milyon bareldən çoxdur. Neftin dünya bazar qiyməti Azərbaycana daxil olan valyutanın həcmi baxımından vacibdir. Azərbaycan ixracatının təxminən 80 faizini neft və neft məhsulları təşkil edir. Bu baxımdan neftin qiyməti bir tərəfdən gəlirlərimiz digər tərəfdən ölkəyə valyutanın daxil olması baxımından əhəmiyyətlidir”.

**İqtisadçı-alim xatırladır ki, 2024-cü ilin dövlət büdcəsinə edilən dürüstləşmələrdən sonra əsas maliyyə sənədində neftin qiyməti 60 dollardan 75 dolladək artırılıb**: “Hazırda dünya bazarında neftin qiyməti büdcədəki qiymətdən cüzi artıqdır. Doğrudur, 2024-cü ilin geridə qalan ayları üzrə neftin orta qiymətini nəzərə aldıqda mövcud bazar tarazlığı fiskal gəlirlərimiz üçün risk formalaşdırmır. Amma sözsüz neft ölkəyə valyuta daxil olmasına xüsusi təkan verdiyi üçün bu baxımdan 2024-cü ildə ölkəyə daxil olan vəsaitin həcmi, eləcə də tədiyyə balansımızın vəziyyəti birbaşa neftin dünya bazarının qiymətindən asılı olacaq.

Neftin qiymətinin manatın məzənnəsinə təsirlərinə gəldikdə isə Mərkəzi Bankın 2024-cü il üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanatında bu ildə də neft gəlirlərimizin manatın məzənnəsinə təsir edən əsas faktor olacağı vurğulanır. Fiskal sektorun valyuta təklifi və tələbi, eləcə də iqtisadi subyektlərin məzənnə gözləntiləri valyuta bazarındakı tarazlığa təsir göstərən əsas amillər kimi qruplaşdırılsa da, aydındır ki, bu indikatorlar da birbaşa enerji bazarındakı volatillikdən asılıdır. Mərkəzi Bankın məzənnə siyasəti üzrə əməliyyat hədəflərinə nail olmaq üçün valyuta bazarına zəruri hallarda müdaxilə edəcəyini bildirməsi isə ondan xəbər verir ki, enerji bazarında ciddi volatillik baş verəcəyi halda valyuta ehtiyatlarımızdan istifadə edilə bilər. Bu isə o deməkdir ki, manatın məzənnəsi yenə də birbaşa Mərkəzi Bankın mövqeyindən asılı olacaq”.

**❑ Dünya SAKİT,**
**“Yeni Müsavat”**



## Peşə təhsili almaq üçün 16 mindən çox şəxs müraciət edib

**Peşə təhsili almaq üçün 1 həftədə 16000-dən çox şəxs müraciət edib.**

Peşə Təhsili üzrə Dövlət Agentliyindən APA-ya verilən xəbərə görə, peşə təhsili müəssisələrinə maraq rekord səviyyəyə çatıb. Son bir həftə ərzində 16458 nəfərdən 52540 müraciət daxil olub.

Qeyd edək ki, peşə təhsili almaq istəyən şəxslər 29 iyul - 12 avqust tarixlərində portal.edu.az platformasında qeydiyyatdan keçməklə “Peşə təhsili müəssisələrinə elektron tələbə qəbulu” xidməti vasitəsilə müraciət göndərməlidirlər. 2024/2025-cü tədris ili üzrə tələbə qəbulu 84 peşə təhsili müəssisəsində 136 ixtisas olmaqla 30 960 plan yeri üzrə aparılır. Bu yerlərdən 23 185 dövlət sifarişli, 7775-i isə ödənişlidir. Qəbul prosesi ümumi və ya tam orta təhsil bazasını bitirən şəxslər üçün açıqdır. Son müraciət tarixi 12 avqust 18:00-dır.

**İyulun 26-da Parisdə keçirilən Yay Olimpiya Oyunlarının açılış mərasimi zamanı "France 2" telekanalının ölkəmizə qarşı qərəzli mövqeyini və təxribatını bu dəfə "France24" davam etdirib. Sözü gedən kanal COP29 ərəfəsində Azərbaycanda insan hüquqlarının vəziyyətinin "mübahisəli" olmasından bəhs edib. Səbəb kimi də Qarabağın "blokadası" və 2023-cü ilin sentyabrında gedən döyüşlərin "əhali"nin (erməni sakinlər nəzərdə tutulur - red.) "məcburi" köçkünlüyünə gətirib çıxarmasını göstərib. Rəsmi İrəvanın belə bir iddiada olmamasına baxmayaraq, "France 24" ermənilərin Qarabağdan könüllü və heç bir təhlükə olmadan çıxıb getməsini həyasızcasına "soyqırımı" adlandırıb və bu sözü işlətmək üçün Beynəlxalq Cinayət Məhkəməsinin (MCM) keçmiş prokuroru Luis Moreno Okampoya istinad edib.**

# Azərbaycana hürən Okampoya Fransa telekanalları da qoşulub...

## "France 2" telekanalının təxribatını bu dəfə "France24" davam etdirib, keçmiş prokurorun erməni köçünü "soyqırımı" adlandırmasına yer ayırıb; bəs o, genosiddirsə, Xocalı nədir?



"Yeni Müsavat" qeyd edir ki, kanal sabiq prokurora nədənsə çox yer ayırıb və onun keçmiş qondarma qurumun rəhbəri olan, çoxsaylı cinayət əməlləri törədən və hazırda barələrində həbs qətimkan tədbiri seçilərək, Bakıda saxlanılan Arkadi Qukasyan, Bako Saakyan və Araik Arutyunyanın həbsini qanunsuz adlandırmasını efirə verib. Ruben Vardanyan isə "xeyriyyəçi iş adamı" kimi təqdim edilib. Halbuki Vardanyanın Rusiya hakim dairələrinin çirkli pullarının yuyulmasında müstəsna xidməti və bu şəxsin qara işləri haqqında Qərb mediası və araşdırmaçıları tutarlı faktlarla dəfələrlə çıxış ediblər. Beləcə, Fransa Azərbaycana qarşı təxribatçı təbliğatını dayandırmaq niyyətində deyil və bütün tədbirlərdən - istər Parisdə keçirilən Olimpiya Oyunları, istərsə də Bakıda baş tutacaq COP29-dan öz çirkin məqsədləri üçün istifadə etmək istəyir.

Maraqlıdır, o hansı hüquqi normalar sistemidir ki, onlara əsasən əhalinin bir yerdən başqa yerə sakitcə, sağ-salamat yerdəyişməsi "soyqırımı" kimi təsnif edilir? Azərbaycan dövlətinə qarşı çıxmış erməni separatçı əhalinin burunları belə qanamadan, dünyanın gözü qarşısında, könüllü şəkildə Qarabağı tərk etməsi "genosid" adlandırılırsa, onda Xocalıda törədilənlər nə idi? "Soyqırımı" sözünü separatçı ermənilərə xatir bu qədər ucuzlaşdırmaqda məqsəd nədir? Fransa mediası məlum, ermənilər bu yaramaza hər ay nə qədər pul ödəyirlər? Ümumiyyətlə, Okampo kimi tulaların Azərbaycana hansısa ziyanı dəyə bilərmi, yoxsa "it hürər, karvan keçər" atalar məsəli ilə ona diqqət verməməliyik?

**AMİP sədri Arzuxan Əlizadə "Yeni Müsavat"a qeyd etdi ki, hər birinin cavabı verilməlidir və bu qərəzli dairələr yerinə oturdulmalıdır**: "Biz həmişə ədalətsizliklə üzləşmişik. 30 il eyni haqsızlığa məruz qalmışıq. Müharibədə qələbə ilə reallığı dəyişə bilmişik və indi həmin güclər regiona Ermənistan üzərindən həmlə etməyə çalışırlar. Ona görə də cavabları lazımi səviyyədə verilməlidir. Çünki bir sıra hallarda cavab alanda geri çəkilirlər".

**AMİP sədri vurğuladı ki, ermənilər Fransada çox iş görüblər və müəyyən ictimai rəy formalaşdırıblar, möhkəmləniblər:** "Biz də işləməliyik, gücümüzü artırmalıyıq. Həqiqətlərin çatdırılması və erməni yalanlarının ifşasında fəaliyyətimizi gücləndirmək lazımdır. Xüsusən də diaspor və lobbi işində indikindən beş qat artıq iş görmək lazımdır. Çünki əleyhimizə əks-təbliğat aparılır, Avropada Azərbaycan haqda mənfi imic yaradılır və buna qarşı sistemli mübarizə təşkil olunmalıdır".

**Siyasi Hüquqların Müdafiə Mərkəzinin rəhbəri Xəzər Teyyublu isə qeyd etdi ki, Makron administrasiyası bütün resurslarını Azərbaycanı qarşı işə salıb:** "Bu gün Fransa hakimiyyəti Ermənistan iqtidarından daha çox bizə düşmənçilik edir. Bakı ilə İrəvan sülh danışıqları aparır, Paris isə hər fürsətdə gərginlik yaranması üçün cəfəng ittihamlar səsləndirir. Antiterror əməliyyatından sonra Qarabağa BMT missiyası gəlib, heç bir etnik təmizləmə, dini abidələrin dağıdılması faktı aşkarlamayıb, hər hansı dövlət bizi apardığımız qanuni əməliyyatla bağlı günahlandırmayıb, Ermənistan özü belə şikayətçi deyil, amma Fransa özünə əl qatıb ki, guya ermənilər Xankəndi və ətraf ərazilərdən qovulublar. Bu necə etnik təmizləmədir ki, gedəndə gülürdülər, şokolad yeyirdilər? Onların hamısı Ermənistan pasportu daşıyan və bu ölkənin vətəndaşları olan şəxslər idi. Ona görə Qarabağdan qovulmayıblar və sadəcə, oranı könüllü şəkildə tərk ediblər".

**Hüquq müdafiəçisi ələvə etdi ki, bizə qarşı sənədli-sübutlu bir fakt təqdim edə bilmirlər:** "Ki, Azərbaycanın genosid törətdiyi isbat edilsin. Çünki elə bir nümunə yoxdur. Sadəcə, Fransadakı Makron hakimiyyəti gah beynəlxalq təşkilatlar, gah telekanallar vasitəsilə üstümüzə hürür. Bu prosesdə Fransa Senatı, ayrı-ayrı deputatlar iştirak edirlər. Bir ara da daxili işlər naziri bağırırdı ki, Yeni Kaledoniyadakı hadisələri guya Bakı qızışdırır. O baxımdan Fransa açıq-aşkar düşmənçiliklə məşğuldur. Son olaraq da hər iki Fransa telekanalı Azərbaycana qarşı hikkəli davranıb. Dünya Olimpiadanı izləyir, Fransa işini-gücünü atıb düşüb canımıza. Dünya bilir ki, payızda Bakıda BMT-nin İqlim dəyişikliyi konfransı olacaq, Fransa özünə əl qatıb ki, Azərbaycanda Araik niyə həbsdədir?! Yəni terrorçunu, separatçını müdafiə edirlər. Luqansk separatçılarına qarşı Ukraynaya silah verən ölkə, Qarabağda mövcud olmuş qaniçən separatçı rejimin rəhbərlərinin həbsinə görə məyusluq keçirir. Təbii ki, ikili yanaşmadır".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# ABŞ-dan gələn xəbər Cənubi Koreya fond bazarını çökdürdü



**Cənubi Koreyanın əsas fond birjası indeksi KOSPI bir gündə 8,7 faiz azalıb.**

Musavat.com xəbər verir ki, bu barədə məlumatı "Yonhap" agentliyi ticarət məlumatlarına istinadən yayıb.

Bildirilir ki, indeks həftənin ilk iş günü 234,6 bənd azalma ilə 2441,5 bəndlə başa çatıb.

Bu azalmanın ABŞ-da məşğulluqla bağlı gözləntilərin əksinə olan nəticələrin qeydə alınmasından qaynaqlandığı bildirilir. Məşğulluq sahəsində pisləşmə ABŞ-da iqtisadi artımın zəifləməsi təhlükəsi yaradır.

"Yonhap" qeyd edir ki, mütləq göstəricilərdə azalma rekord həddə çatıb. Bu, 2008-ci ilin oktyabrında qeydə alınan 10,57 faizlik azalmadan bəri ən aşağı göstəricidir. Cənubi Koreya vonunun məzənnəsi də dollar qarşısında zəifləyib. Cənubi Koreya mediası bu bazar ertəsini birja üçün "ən pis gün" adlandırır.

İndeksin 8 faizdən çox azalması səbəbindən yerli vaxtla saat 14:14-də (Bakı vaxtı ilə 09:14) ticarət 20 dəqiqə dayandırılıb.

Gün ərzində Cənubi Koreyanın ən böyük şirkətlərindən "Samsung Electronics"in səhmləri 10,3 faiz, "SK hynix" 9,8 faiz, "Hyundai Motor"unku isə 8,2 faiz ucuzlaşıb.

❑ **Musavat.com**

# Qərbin sanksiyaları "Roskosmos"a 180 milyard zərər vurdu




**Qərb ölkələrinin bağlanmış müqavilələrdən imtina etməsi Rusiyanın "Roskosmos" şirkətinin 180 milyard rubl zərərə düşməsinə səbəb olub.**

Musavat.com xəbər verir ki, bu barədə "İnterfaks"a müsahibəsində dövlət korporasiyasının baş direktorunun birinci müavini Andrey Elçaninov bildirib.

Onun sözlərinə görə, Ukraynada müharibə başlayandan və Qərb ölkələri ilə müqavilələrə xitam verildikdən sonra "Roskosmos" Afrika, Yaxın Şərq və Cənub-Şərqi Asiya ölkələri də daxil olmaqla, yeni beynəlxalq bazarlara istiqamətlənib: "İxracın sanksiyadan əvvəlki həcminə qayıtmağa gəlincə, biz qarşımıza belə bir vəzifə qoymuşuq. Lakin bu, uzun müddət tələb edir, çünki bütün yeni bazarlarda böyük rəqabət var. Biz uğurlu giriş edə bilsək, perspektivlər böyükdür".

**Elçaninov qeyd edib ki, dövlət korporasiyası hazırda maliyyə böhranından mərhələli şəkildə çıxmaq prosesindədir:** "2022-ci ildə sənayenin planlaşdırılan itkisinin ən azı 50 milyard rubl olacağı proqnozlaşdırılırdı. Biz 17 milyarddan bir qədər çox zərərlə kifayətlənə bildik. 2023-cü ildə gözlənilən 45 milyard rubl əvəzinə zərərimiz 13,9 milyard rubl oldu".

❑ **Musavat.com**




## İnstagram və Telegram-da narkotiklərin satışını həyata keçirən 148 səhifə bağlandı

**İnstagram və Telegram-da yeni kiber üsullardan istifadə olunmaqla narkotiklərin satışını həyata keçirən 148 səhifənin bağlanması təmin edilib.**

Bu barədə APA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, son dövrlər müasir texnologiyaların sürətli inkişafı ilə bir sıra cinayətlərin ənənəvi üsullarla deyil, yeni texnoloji vasitələrdən istifadə olunmaqla törədilməsinə rast gəlinir. Xüsusilə narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil edən transmilli şəbəkələrin cinayətkar fəaliyyətlərini kibermәkana keçirdiyi müşahidə olunmaqdadır.

Daxili İşlər Nazirliyi Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən internet resurslarında aparılan araşdırmalar nəticəsində sosial şəbəkələrdə narkotiklərin satışını həyata keçirən bir sıra səhifələr, qruplar və profillər müəyyən edilib. Qabaqlayıcı tədbirlər nəticəsində xarici ölkələrdən idarə edilən bu tipli 117 İnstagram səhifəsinin və 31 Telegram kanalının bağlanması təmin edilib.

Müəyyən olunub ki, həmin səhifələrin idarəçiləri şəbəkə üzvləri arasında məlumat mübadiləsini artıq gizli kanallar və şifrəli mesajlar göndərməklə həyata keçirirlər. Bu səhifələrə ilkin baxış zamanı hər hansı qeyri-leqal fəaliyyətlə məşğul olunduğuna dair şübhələr yaranmır.

Həmin aktiv profillərin gizli fəaliyyətinin deşifrə olunması məqsədilə Baş İdarənin həyata keçirdiyi sonuncu tədbir zamanı sosial şəbəkə üzərindən narkotiklərin satışını təşkil edən səhifələrin bir neçəsinin adminləri 1986-cı il təvəllüdlü Fəqan Qasımov və 1982-ci il təvəllüdlü Minir Akçurin saxlanılıblar.

Onlardan narkotiklərin satışını həyata keçirdikləri sosial şəbəkə hesablarının şifrələri, mobil nömrələr, xeyli sayda bank kartları, mobil telefon və iş üçün əhəmiyyət kəsb edən digər maddi sübutlar aşkarlanıb. Saxlanılan şəxslər narkotiklərin satışından əldə edilən külli miqdarda pul vəsaitini isə kriptovalyuta və digər elektron pul kisələri vasitəsilə leqallaşdırıblar.

Aşkar olunan faktlarla bağlı Baş İdarədə cinayət işi başlanılıb. F.Qasımov və M.Akçurin barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Dəstənin digər üzvlərinin müəyyən olunaraq saxlanılması istiqamətində əməliyyat-texniki tədbirlər davam etdirilir. Daxili İşlər Nazirliyi valideynlərə müraciət edərək bildirir ki, uşaqların kibertəhlükəsizliyinin təmin olunmasının məsuliyyəti ilk növbədə onların üzərinə düşür. Övladlarınızı internetdən təhlükəsiz istifadə qaydaları barədə məlumatlandırın və onları sosial mediada rastlaşa biləcəkləri zorakılıq, kriminal fəaliyyətin təbliğ olunduğu, zərərli kontentlərin reklam edildiyi səhifə və sosial şəbəkə hesabları ilə təmas qurmaqdan çəkindirin.

# Terrorçular da süni intellektə sevinir - şok səbəb

## Ekspert: "Süni intellekt modelləri ilə zərərli silah yaratmaq olar, bunun üçün..."



**Süni intellekt terrorçulara bioloji silah yaradılmasında kömək edə bilər. "Bloomberg" yazır ki, bunu biokimyaçı və BMT-nin keçmiş silah müfəttişi Rokko Kasaqrande deyib. O, süni intellektin (AI) terrorçulara bioloji agentləri müəyyən etməsinə və bioloji silah yaratmasına kömək edə biləcəyini söyləyib.**

Ekspert Ağ Ev rəsmilərinə neyron şəbəkələrinin terrorçulara bioloji agentləri müəyyən etməyə kömək edə biləcəyi barədə narahatlığını bildirib. Onun sözlərinə görə, bu, biosilahların yaradılması və yayılması riskini artırır.

"Hər terrorçunun öz balaca alimi olsa necə?" - Kasaqrande bildirib. Belə bir təhlükə nə dərəcədə ciddidir? Xüsusən də süni intellekt terrorçuların xidmətində olanda. Bu, həm də o deməkdir ki, nüvə dövlətlərində nüvə başlıqlarına nəzarət çətinləşə bilər?

Qeyd edək ki, Kasaqrande 2023-cü ildə potensial ölümcül virus yaratmaq üçün inqrediyentləri olan kiçik bir qutu ilə Ağ Evə girib. Bu komponentlər süni intellektlə işləyən chatbot tərəfindən təmin edilib. Bu nümayişin məqsədi zərər vermək deyil, ABŞ rəsmilərinin diqqətini yeni təhlükəyə - süni intellektdən istifadə etməklə bioloji silahların yaradılmasına yönəltmək olub. Casagrande, ChatGPT kimi süni intellektlə işləyən alətlərin terrorçulara təhlükəli viruslar yaratmağa necə kömək edə biləcəyini izah edərək, bu təhdidlərə tez reaksiya vermənin vacibliyini vurğulayıb. Təqdimatdan sonra süni intellektlə yaradılan bioloji silahlarla bağlı narahatlıqlar milli təhlükəsizlik orqanları arasında yayılıb. Müxtəlif qurumların nümayəndələri ABŞ-ın süni intellektlə yaradılmış bu cür silahların yaranmasına hazır olmadığını anlayaraq nümayişlər tələb ediblər. Süni intellekt imkanları əhəmiyyətli dərəcədə artaraq bioloji silahların ev laboratoriyaları kimi qeyri-ənənəvi şəraitdə hazırlanması potensialını yaradıb və qlobal təhlükəsizliyə ciddi təhlükə yaradıb.

Süni intellekt, sintetik biologiyada irəliləyişlərlə birləşərək, bioloji silahları tez və ucuz şəkildə yaratmağa imkan verir. DNT çapı kimi texnologiyalar ənənəvi laboratoriya infrastrukturuna ehtiyac olmadan belə silahların yaradılmasını asanlaşdırır. Süni intellekt modelləri virusların və toksinlərin manipulyasiyası haqqında məlumat verə bilər, sui-istifadənin qarşısını almaq üçün nəzarət və tənzimləmə ehtiyacını artırır. Bu təhdidlərə cavab olaraq, Bayden administrasiyası diqqətini süni intellektin yaratdığı bioloji təhlükəyə yönəldir. Böyük süni intellekt şirkətləri 2023-cü ilin iyul ayına qədər süni intellektlə bağlı riskləri qiymətləndirməyi öhdələrinə götürüblər və bu, oktyabr ayında genişmiqyaslı icra sərəncamının verilməsinə səbəb olub. Fərman biotəhlükəsizlik sahəsində süni intellekt alətlərinə nəzarətin artırılmasını və süni intellekt üzrə təhlükəsizlik institutunun yaradılmasını nəzərdə tuturdu. Bununla belə, tənqidçilər iddia edirlər ki, bu tədbirlər şirkətlərin könüllü riayət etməsinə çox böyük etibar edir və uyğunluğu təmin etmək üçün kifayət qədər effektiv deyil. Süni intellektin ən yaxşı şəkildə necə tənzimlənməsi və onun bioloji silah yaratmaq potensialı ilə bağlı müzakirələr davam edir. Bəziləri süni intellekt alətlərinə daha sərt nəzarətin tərəfdarı olsa da, digərləri laboratoriyaların və materialların tənzimlənməsinin vacibliyini vurğulayır. Alimlər tədqiqat və innovasiyaları təkmilləşdirmək üçün süni intellektdən məsuliyyətlə istifadə etməyin vacibliyini vurğulayırlar. Süni intellektin potensial faydaları və riskləri arasındakı gərginlik, biologiyanın hərbi məqsədlər üçün istifadəsi ilə bağlı narahatlıqlar da daxil olmaqla, siyasi müzakirələrdə əsas mövzu olaraq qalır. Süni intellektin bioloji silah yaratmaq potensialı qlobal təhlükəsizliyə ciddi təhlükə yaradır. Texnoloji tərəqqi əhəmiyyətli faydalar təmin etsə də, sui-istifadənin qarşısını almaq üçün güclü nəzarət və beynəlxalq əməkdaşlıq tələb edir. İnnovasiya və təhlükəsizlik arasındakı tarazlıq biotexnologiyada süni intellektin gələcəyini istiqamətləndirmək üçün kritik rol oynayacaq. Qlobal birlik bəşəriyyəti yaranan təhlükələrdən qorumaq üçün süni intellektdən məsul istifadəni təmin etmək üçün ayıq-sayıq qalmalıdır.

**"Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası"nın (AİKTSA) İdarə Heyətinin sədri, ekspert Elvin Abbasov mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, onlayn süni intellektlər, ChatGPT, "Mikcrosoft"un Copiloft kimi süni intellektləri terror aktlarında, silah düzəltmədə, insan öldürmədə köməklik etmirlər:** "Amma proqramistlər öz əldə etdikləri baza vasitəsilə süni intellektin emalını edə bilərlər. Burada əsas məqam ondan ibarətdir ki, süni intellektin istifadə dairələri beynəlxalq platformalarda Copilot, "Microsoft"un Copilotu, "Google"un Gemy, Open İA-nın ChatGPT-si kimi süni intellektlər etik normalarla işləyir, virus yazmaq, silah düzəltmək, atom bombası düzəltmək və bunun kimi digər zərərli məlumatları vermirlər. Onlar açıqlamalarında qeyd edirlər ki, bu kimi məlumatları verə bilmirlər. Amma proqramistlər özləri baza generasiya edib o bazaya süni intellekti qoşaraq özləri üçün publik olmayan, süni intellekt modellərindən istifadə edə bilərlər. Əgər onların əlində geniş məlumat bazası varsa, onlar bu tip məlumatları əldə etmək üçün süni intellektdən yardım ala bilərlər. Burada əsas məsələnin mahiyyətinə baxılmalıdır. Süni intellekt modeli ilə bağlı artıq analoji təcrübə çoxdur. Hər yerdə, hər kənddə var. Burada əsas olan məlumat bazasıdır, yəni "Big Data"lardır. "Big Data" əlçatan olandan sonra süni intellekt modelləri ilə istənilən bir terror aktında, müharibələrdə istifadə etmək üçün hər hansı bir zərərli silah yaratmaq olar. Bunun üçün isə baza lazımdır. Bəs bu terroristlər üçün əlçatandırmı, bununla bağlı bizdə məlumat yoxdur".

**❑ Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 137 (8510) 6 avqust 2024

# Özü getdi, izi qaldı - COVİD-19-un bitməyən uzaq fəsadları

**Adil Qeybulla:** “Bu xəstəliyi keçirənlərin çox ciddi travmatik fəsadlar yaşadığının, sinir sistemində dəyişikliklər olduğunun, xərçəng, autizm xəstəliklərinin artmasının şahidi oluruq”

**Zülfüqar Yusifov:** “Koronavirus həm də sistem xəstəliyidir, orqanizmi ciddi zədələyir”

**COVİD-19-dan sağalanlar infeksiyadan 2-3 il sonra belə depressiya, narahatlıq, yorğunluq və yaddaş problemlərindən əziyyət çəkirlər. “Yeni Müsavat” xəbər verir ki, bu barədə Britaniya alimləri bildiriblər.**

Tədqiqat diqqət və yaddaş testlərində zəif nəticələr də daxil olmaqla, davamlı və əhəmiyyətli simptomlar aşkar edib. Bir çox iştirakçı depressiya, narahatlıq və yorğunluğun artdığını, habelə illər sonra yeni simptomların ortaya çıxdığını bildirib. Respondentlərin dörddə birindən çoxu isə səhhətin pisləşməsi və qeyri-qənaətbəxş iş nəticələrinə görə işlərini dəyişmək məcburiyyətində qalıb.

Ümumiyyətlə, koronavirusun yayıldığı ilk zamanlardan bəri peyvəndlərə qarşı münasibət birmənalı deyil. Son vaxtlar qəfil vəfat edən gənc və ortayaşlı insanların sayı xeyli artıb ki, bunun da səbəbini əksəriyyət koronavirus əleyhinə vurulan peyvəndlərdə görür.

Lakin bunun əksini söyləyənlər də var. Məsələn, Britaniya Ürək Fondunun (BHF) Elmi Məlumatlar Mərkəzinin dəstəyi ilə Kembric, Bristol və Edinburq universitetlərinin alimləri COVİD-19-a qarşı peyvəndin gözlənilməz təsirini aşkar ediblər. Belə ki, "Nature Communication" jurnalında dərc olunan araşdırmaya görə, peyvəndlər infarkt və insult hallarını azaldır. Peyvəndin ilk dozasından sonra 13-24 həftə ərzində infarkt və insult hallarının nisbətinin 10 faiz azaldığı aşkar edilib. İkinci dozadan sonra belə hallar “AstraZeneca” peyvəndindən sonra 27 faiz, "Pfizer"/"Biotech" peyvəndindən sonra isə 20 faiz azalıb. Venoz trombotik hallara dair də analoji azalma müşahidə edilib.

Həmçinin COVİD-19 vaksinləri ilə əlaqəli, məsələn, mRNA vaksinlərindən sonra miokardit və perikardit, adenovirus peyvəndlərindən sonra isə trombotik trombositopeniya kimi nadir ürək-damar ağırlaşmaları aşkar edilib. Lakin peyvəndlə bağlı yeni ciddi ürək-damar ağırlaşmaları müəyyən edilməyib.





Müəlliflərin fikrincə, tədqiqatın nəticələri ürək-damar sistemi üçün COVİD-19 peyvəndinin təhlükəsizliyini təsdiqləyir. Peyvəndin faydaları risklərdən qat-qat üstündür və peyvənd COVİD-19-un ağır hallarının qarşısının alınması üçün mühüm vasitə olaraq qalır.

Bəs COVİD-19-un bu kimi uzaq ağır fəsadları xəstəliyi orta ağır və yüngül keçirənlərdə və peyvənd olunanlarda da özünü göstərə bilərmi, göstərirmi? Nə etməli? Qidalanmada nələrə diqqət etməli?

**Tibb elmləri doktoru, professor Adil Qeybulla mövzu ilə bağlı “Yeni Müsavat”a danışıb:** “Hazırda pandemiya Ümumdünya Səhiyyə Təşkilatının raportu ilə bitdiyi elan olunub. Lakin hələlik xırda epidemik ocaqlar davam edir, çünki Omikron ştammının mutasiya variantları davam edir.

Ümumiyyətlə, COVİD-19 virusu keçirənlərin çox ciddi travmatik fəsadlar yaşadığının, sinir sistemində dəyişikliklər olduğunun, xərçəng, autizm xəstəliklərinin artmasının şahidi oluruq. Lakin məsələ burasındadır ki, dünyanın böyük elmi mərkəzləri, o cümlədən Oxsford, Kembric, Harvard və sairə tibb məktəblərinin çox ciddi araşdırmaları var və onların nəticələri yavaş-yavaş elan olunmaqdadır. Yəqin ki, yaxın vaxtlarda bütöv nəticələr bildiriləcək. Elan etdikləri nəticələr onu göstərir ki, COVİD-19 keçirən insanlarda dəyişikliklər çox ciddi şəkildə qalır, nəinki vaksinasiya olunanlar. Amma hesab edirəm ki, həmin mərkəzlərin məlumatlarından sonra necə davranmaq lazım olduğu haqda da tövsiyələr olacaq və biz o istiqamətdə davranmalı olacağıq".

**“Ankara” klinikasının baş həkimi Zülfüqar Yusifov** qeyd edib ki, kifayət qədər pasiyent COVİD-19-dan sonra əhvallarının pisləşməsindən, uzunmüddətli narahatlıqlardan bəhs edir, hətta peyvənd olunan yerin narahatlıq yaratdığını bildirir: “Əlbəttə ki, hər bir xəstəlik özündən sonra orqanizmdə müəyyən bir iz qoyur, hansısa orqan və sistemləri daha əlverişsiz vəziyyətə gətirib çıxarır. Məlum olduğu kimi, COVİD-19 həm də sistem xəstəliyidir, orqanizmi ciddi zədələyir. Bundan başqa, müalicəsində də orqanizmə zərər vura bilən çox sayda dərmanlardan istifadə olundu ki, bu da fəsadlar yarada bilir. Bütün bunların üzərinə həmin dövrdə insanların yaşadığı dəhşətli sistemi də əlavə edəndə, sinir sisteminin nə qədər çox yükləndiyini görürük. Yeni COVİD-19 bütövlükdə həm ayrı-ayrı orqanlara, həm də ürək-damar, sinir sisteminə ağrı zərbə vuran xəstəlikdir, bu baxımdan xəstəlikdən sonra insanlarda müəyyən narahatlıqların qalması anlaşılandır.

Bəs nə etməli? İlk növbədə ailədə, evdə, işdə psixologiyanın yaxşılaşması üçün müəyyən şərait yaratmaq lazımdır. Bundan başqa, bəzi gündəlik normal həyatdan uzaqlaşıb, istirahət etmək lazımdır. Orqanizmdə qida, energetik balansı düzgün tənzimləmək, təmiz havada çox olmaq, stressdən uzaqlaşmaq lazımdır.

Ən əsası, mütəmadi olaraq həkim müayinəsinə getmək lazımdır. Əgər sistem və orqanizmdə hansısa dəstəyə ehtiyac varsa, bunları da həkimin köməkliyi ilə onun təyinatına uyğun şəkildə həyata keçirmək lazımdır".

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**



# Ötən ay Azərbaycana turist gəlişi 21% artıb



**Ötən ay Azərbaycana xaricdən 271 591 turist gəlib.**

Bu barədə “APA-Economics”ə Dövlət Turizm Agentliyindən bildirilib.

Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 21% çoxdur.

İyul ayında ölkəyə ən çox turist azalan sıra ilə Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı, Hindistan və İrandan gəlib. Rusiyadan ölkəmizə gələn turistlərin sayı 78 140 nəfər təşkil edib ki, bu da illik müqayisədə 8% çoxdur. Dövr ərzində Türkiyədən Azərbaycana turist axını illik 11% artaraq 34 719 nəfər, Səudiyyə Ərəbistanından 11% artaraq 24 255 nəfər, Hindistandan 2,6 dəfə artaraq 20 124 nəfər, İrandan 24% artaraq 17 901 nəfər olub.

Bu ilin yanvar-iyul aylarında Azərbaycana xaricdən 1 502 695 turist gəlib ki, bu da illik müqayisədə 31% çoxdur.

# MİQ üzrə vakansiya seçimi mərhələsində hər il 3 minə qədər yer seçilmir

**“Müəllimlərin işə qəbulu üzrə müsabiqənin vakansiya seçimi mərhələsində hər il 3 minə qədər yer seçilmir”.**

APA xəbər verir ki, bunu İnsan Resursları Mərkəzinin şöbə müdiri Muxtar Hacıyev deyib.

O bildirib ki, hər il seçim üçün 10 min vakansiya təqdim olunur:

“İl boyunca 17- 18 minə qədər vakansiya da təqdim olunur. 3 minə qədər vakansiyanın seçilməməsinin səbəbi isə adətən məktəblərin mərkəzlərə uzaq yerlərdə yerləşməsi ilə əlaqələndirilir. Lakin bu məktəblərdə də ixtisas üzrə müəllimlərin təmin edilməsi üçün biz o vakansiyaları təkrarən seçimə təqdim etməliyik”.

“Vakansiyaların gizlədilməsi halı ilə bağlı konkret olaraq deyə bilmərik ki, bu kimi faktlar var. Biz bununla bağlı bütün müraciətləri nəzərə alır və araşdırırıq. Vətəndaşlardan da xahiş edirik ki, hansısa məktəbdə vakansiyanın gizlədilməsi halı varsa, bununla bağlı bizə məlumat versinlər”, - deyə o əlavə edib.



## Azərbaycanın çay idxalı ixracını 19 dəfədən çox üstələyib

**2024-cü ilin yanvar-iyun ayları ərzində Azərbaycanın çay idxalı ötən ilin müvafiq dövrü ilə müqayisədə həcm baxımından 6.8% artaraq 6 576 ton, dəyər baxımından isə 2.3% artaraq 33.5 milyon ABŞ dolları təşkil edib.**

"APA-Economics"in Dövlət Gömrük Komitəsinin hesabatı əsasında apardığı hesablamalara görə, hesabat dövründə Azərbaycanın çay ixracı illik müqayisədə həcm baxımından 3% artaraq 344.61 ton, dəyər baxımından isə 3.5% artaraq 3 milyon 122 min ABŞ dolları təşkil edib. Beləliklə, həcm ifadəsində idxal ixracı 19.1 dəfə üstələyib.

Qeyd edək ki, bu dövrdə çayın bir kiloqramının orta idxal qiyməti 8.7 manat, orta ixrac qiyməti isə 15.4 manat təşkil edib.

Xatırladaq ki, hesabat dövründə çay ixracı Azərbaycanın ümumi ixracının 0,02%-ni, çay idxalı isə ölkənin ümumi idxalının 0,38%-ni təşkil edib.



## Əhməd Rəcəbli küçəsində hərəkət məhdudlaşdırılacaq

**6 avqust saat 00:00-dan 9 avqust saat 09:00-dək Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli küçəsində (C.Xəndan küçəsindən Z. Bünyadov prospektinədək ) aparılacaq təmir işləri ilə əlaqədar avtonəqliyyat vasitələrinin hərəkəti tam məhdudlaşdırılacaq.**

"APA-Economics" xəbər verir ki, sürücülərdən aparılan işlərə anlayışla yanaşmaları, qeyd olunan müddət ərzində hərəkət istiqamətlərinə uyğun alternativ yollardan istifadə etmələri xahiş olunur.

# Şirin qarpızı necə seçmək olar? - yeddi məsləhət



**İsti yay günlərində ən çox yeyilən bostan bitkilərindən biri də qarpızdır. Qarpızı yemək ləzzətli olsa da, onu seçmək heç də asan deyil.**

Doğru seçim etmək üçün diqqət etməli olduğunuz bir neçə məsələ var. Belə ki, qarpızın forması, çəkisi, rəngi və digər hallara diqqət edilməlidir.

Şirin və yetişmiş qarpız seçmək üçün diqqət etməli olduğunuz məqamları təqdim edirik:

**1. Forma və böyüklük:**

Yaxşı qarpız simmetrik və düzgün formalı olmalıdır. Qırışları və qeyri-düzgünlüyü olan qarpızlardan qaçın.

Çox böyük və ya çox kiçik qarpızlardan çəkinin. Orta böyüklükdə olan qarpızlar daha şirin və daha yaxşı ola bilər.

**2. Çəki:**

Qarpızın çəkisi onun su miqdarını göstərir. Yaxşı qarpız ölçüsünə görə ağır olmalıdır. Əgər qarpız yüngüldürsə, o zaman içərisi qurudur və suyu azdır.

**3. Saplaq:**

Qarpızın saplağı quru və qəhvəyi rəngdə olmalıdır. Yaşıl saplaq qarpızın hələ tam yetişmədiyini göstərir.

**4. Sarı ləkə:**

Qarpızın qabığının altında sarı rəngli ləkə (meyvənin uzandığı yer) olmalıdır. Bu ləkə qarpızın kifayət qədər günəş işığı aldığını və yetişdiyini göstərir. Sarı ləkə nə qədər tünddürsə, qarpız o qədər şirin olacaq.

**5. Qabıqdakı zolaqlar:**

Qarpızın qabığında tünd yaşıl və açıq yaşıl zolaqlar olmalıdır. Zolaqlar aydın və təmiz görünməlidir.

**6. Tıqqıltı testi:**

Qarpızın üzərinə tıqqıldatdıqda boğuq və içi dolu səs çıxmalıdır. Bu səs qarpızın dolu və yetişmiş olduğunu göstərir.

**7. Qabıqdakı xətlər:**

Qarpızın qabığında xırda ağ və ya qəhvəyi xətlər varsa, bu, arıların çiçək tozlaşdırması ilə əlaqədardır və qarpızın şirin olduğunu göstərə bilər.

## Transmilli korporasiyalar boykotdan ciddi zərər çəkdi




**Müsəlman ölkələrində Qərbin qida və içki brendlərinin boykot edilməsi transmilli korporasiyaların (MNC) gəlirlərinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərir.**

Musavat.com xəbər verir ki, bu barədə Britaniyanın "Financial Times" (FT) qəzeti materialla çıxış edib.

Materialda qeyd edilir ki, müsəlman ölkələrində, xüsusən də Misir, İndoneziya, Səudiyyə Ərəbistanı və Pakistanda istehlakçılar Qəzza sektorunda qarşıdurmalarda İsraili dəstəkləmələrinə etiraz olaraq "Coca-Cola", KFC, "Starbucks", "Mondelez" və "Pizza Hut" brendlərinin məhsullarından kütləvi şəkildə imtina etməyə başlayıblar.

Qeyd olunur ki, son illərin ən böyük boykotuna çevrilən boykot sosial şəbəkələr vasitəsilə elan edilib və bəzi ölkələrin milli hökumətləri və "Boykot, İnvestisiyaları Çıxarma və Sanksiyalar" (Boycott, Divestment and Sanctions) adlı beynəlxalq ictimai hərəkat tərəfindən dəstəklənir.

Artıq boykotun şirkətlərin gəlirlərinə təsiri nəzərə çarpır. Belə ki, Amerika peçenye istehsalçısı "Mondelez" Yaxın Şərq regionunda faktiki gəlirin 2024-cü ilin birinci yarısında planlaşdırılandan 2 faiz az olduğunu bildirib. İkinci rübdə Fransız kosmetika şirkəti "L'Oreal" da 2 faiz gəlir itkisinə məruz qalıb.

FT qeyd edir ki, əksər beynəlxalq şirkətlər öz mənfəət və zərər hesabatlarında bu mövzuya toxunmamağı seçərək, yalnız "qlobal gərginlik" haqqında ümumi ifadələrlə məhdudlaşırlar. Bəzi analitiklər bunu onunla izah edirlər ki, onların rəhbərliyi bu cür tədbirlərin effektivliyini gizlətmək üçün "problemi gizlətməyə" çalışır.

❑ **Musavat.com**

## Moldovada deputat arı sancmasından vəfat etdi




**Moldovada hakim partiyanın deputatı Yuri Pasat arı sancmasından vəfat edib.**

"Qafqazinfo" "RİA Novosti"yə istinadən xəbər verir ki, siyasətçi anafilaktik şokdan həyatını itirib.

Qeyd edək ki, deputatın 52 yaşı var idi. O, parlamentdə kənd təsərrüfatı üzrə parlament komissiyasının sədr müavini vəzifəsində çalışırdı.

## Rusiyanın neft-qaz gəlirləri artıb



**Rusiya 2024-cü ilin yanvar-iyul aylarında neft və qaz gəlirlərinin həcmini illik ifadədə 61,6 faiz artıraraq bir il əvvəlki 4,193 trilyon rubla qarşı 6,777 trilyon rubla çatdırıb.**

Musavat.com xəbər verir ki, bu məlumat Rusiya Maliyyə Nazirliyinin statistikasında əksini tapıb.

Məlumata görə, iyulda gəlirlər 16,4 faiz artaraq 944 milyard rubla çatıb.

Neft və qaz kondensatının hasilatı və ixracı yeddi ay ərzində büdcəyə 7,944 trilyon rubl qazandırıb. Bir il əvvəl bu, 4,393 trilyon rubl təşkil edirdi. Mineral hasilat vergisi və qaza ixrac rüsumu 6,7 faiz artıb: 2024-cü ilin yanvar-iyul aylarında bir il əvvəlki 955,7 milyard rublla müqayisədə 1,022 trilyon rubl təşkil edib.

2024-cü ilin ilk yeddi ayında neftçilər də yanacaq üçün dempfer mexanizmi üzrə ödənişlər şəklində xəzinədən 1,128 trilyon rubl əldə ediblər ki, bu da 2023-cü ilin yanvar-iyul ayları ilə müqayisədə 72,7 faiz çoxdur.

❑ **Musavat.com**

Yeni MÜSAVAT
N 137 (8510) 6 avqust 2024

# "Qarabağ"ın qarşısında iki "dişli" rəqib

## Bu gün "bolqar bibəri"ni əzsək...



**Azərbaycan çempionu "Qarabağ" Çempionlar Liqasında növbəti oyununa çıxır. Bakı vaxtı ilə saat 20:00-da Tofiq Bəhramov adına Respublika Stadionunda baş tutacaq oyunda rəqib 13 ildir arda-arda Bolqarıstan çempionu olan "Ludoqorest"dir. Bundan əvvəlki turda Cəbəllütariqin "Linkoln" klubunu darmadağın edərək növbəti mərhələyə yüksələn, eyni zamanda Konfrans Liqasının qrup mərhələsinə vəsiqə qazanan Ağdam klubunu dəfə çox çətin bir oyun gözləyir. Çünki rəqib "Linkoln" deyil, adlı-sanlı "Ludoqorest"dir.**

Qeyd edək ki, azərbaycanlı futbolsevərlərin diqqəti dünən İsveçrənin Nyon şəhərinə yönəlmişdi. Belə ki, bu şəhərdə Çempionlar Liqasının pley-off mərhələsinin püşkü atılırdı və "Qarabağ"ımız "Ludoqorest" səddini keçərsə, bu mərhələdəki rəqibi məlum olurdu. Rəqib də məlum oldu. "Qarabağ" pley-offa yüksələcəyi halda Zaqreb "Dinamo"su (Xorvatiya) ilə üz-üzə gələcək və ilk oyununu səfərdə keçirəcək.

Qeyd edək ki, pley-off görüşləri 20-21 və 27-28 avqust tarixlərində keçiriləcək.

Onu da bildirək ki, Nyon şəhərində həm də Avropa Liqasının pley-off mərhələsinin püşkü atılırdı. Mərasimdə Çempionlar Liqasının 3-cü təsnifat mərhələsinin "Lüdoqorets" (Bolqarıstan) - "Qarabağ" (Azərbaycan) cütünün məğlub tərəfinin potensial rəqibi də müəyyənləşdi. "Qarabağ" Çempionlar Liqasının bu mərhələsində mübarizəni dayandırarsa, "Petrokub" (Moldova) - "The New Saints" (Uels) cütünün qalibi ilə qarşılaşacaq. AL-də pley-offun oyunları avqustun 22-də və 29-da keçiriləcək.

Ötən mövsümdə Almaniyanın güclü "Bayer Leverkusen" klubu ilə başabaş mübarizə aparan, hətta hakim ədalətsizliyi ilə üzləşərək Avropa Liqasının çeyrək finalına yüksələ bilməyən "Qarabağ"ın bu mövsümdə Çempionlar Liqasının qrup mərhələsində ikinci dəfə çıxış etmək şansı yüksək dəyərləndirilir.

**Tanınmış idman yazarı Natiq Muxtarlı "Qarabağ"ın qarşıdakı iki səddi də keçmək üçün şanslarının öz əlində olduğunu düşünür**: ""Qarabağ" artıq özünü Avropada sübut etmiş komandadır. Ona görə də rəqibin hansı komanda olmasının elə bir əhəmiyyəti yoxdur.

Çempionlar Liqasının təsnifat mərhələlərində nəhənglər olmur. Bu mərhələlərdə "köhlən atlar" istənilən rəqiblə oynamağa qadirdir. İndi bu mərhələdəki rəqiblər "Qarabağ"a "nəhəng" kimi yanaşırlar. Amma bu o demək deyil ki, rəqibə yuxarıdan aşağı baxılmalıdır. Yox, istənilən rəqib "Qarabağ"la oyuna ikiqat əzmlə çıxacaq. O cümlədən "Ludoqorets" də. Bolqarıstan təmsilçisi ciddi rəqibdir. Baxmayaraq ki, bir neçə il əvvəlki komanda deyil. Amma hər kəsə başağrısı ola bilər.

Qurban Qurbanovun komandası bu kluba qarşı tam məsuliyyətlə yanaşmalıdır. Əvvəlki iki mərhələdə "Ludoqorets" Gürcüstan və Belarus klublarını mübarizədən kənarlaşdırıb. Hər iki oyun eyni ssenari üzrə keçib: bolqarlar evdə qalib gəlib, səfərdə məğlub olub. Amma evdə daha böyük hesabla qalib gəldikləri üçün mərhələ adlayıblar. Deməli, "Ludoqorets" sırf ev komandasıdır.

Bu amili nəzərə alsaq, "Qarabağ" əsas işi elə ilk oyunda - evdə görməlidir. Bakıdakı oyunda sanballı qələbə səfərdəki işi bir o qədər asanlaşdıracaq.

"Köhlən atlar" da səfərdə inamlı təsir bağışlayırlar. Bakıda qazanılacaq qələbə səfərdə bu inamı bir qədər də artıracaq. "Qarabağ"ın mərhələdən-mərhələyə oyun keyfiyyəti artır. "Linkoln"la ilk qarşılaşmadan fərqli olaraq, Bakıdakı oyun daha parlaq alındı. Bunun ardınca çempionatda "Araz Naxçıvan" da məğlub edildi. Yəni "Ludoqortes" mərhələsi keçiləndən sonra "Qarabağ", böyük ehtimalla, ən yaxşı formasının 75-80 faiz həddinə çatacaq.

Bu oyun keyfiyyəti isə imkan verəcək ki, pley-off mərhələsindəki rəqibi - Zaqreb "Dinamo"sunu da məğlub etmək mümkün olsun. Hazırda "Dinamo" da yaxşı günlərini yaşamır. Bir sözlə, "Qarabağ"ın növbəti dəfə Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanmaq üçün böyük şansı var. İndi səbirli, intizamlı olmaq, bu şansdan maksimum yararlanmaq lazımdır. "Qarabağ" böyük potensiala sahibdir. Bu potensialdan intizamlı şəkildə istifadə edilsə, həm "Ludoqorets", həm də "Dinamo" mübarizədən kənarlaşdırıla bilər. Ümid edək ki, elə belə də olacaq".

**İdman mütəxəssisi Kənan Məstəliyev Zaqreb "Dinamo"sunu arzulanmaz rəqib sayır:** ""Qarabağ"ın Çempionlar Liqasının qrupunda oynamaq şansı heç də az deyil. Bəli, həm "Ludoqorets", həm də onlar keçilsə gələcək rəqib - Zaqreb "Dinamo"su yetərincə ciddi komandalardır. Onların da öz ambisiyaları var, onlar da bizim kimi tur keçib Çempionlar Liqasında oynamaq istəyirlər. Güclər arasında o qədər də böyük fərq yoxdur. Kim döyüşə bilsə, sona qədər dözməyə özündə təpər tapa bilsə, o da sonda qələbəni bayram edəcək. "Qarabağ" ötən mövsüm göstərdi ki, rəqibin kimliyi onun üçün əhəmiyyət daşımır. Nəzərə alsaq ki, komanda ötən il tarix yazan heyəti qoruyub və üstəlik, güclənmək də istəyir, təmsilçimizin iddiası az olmayacaq.

Pley-offun püşkü çətin oldu. Xorvatların dəyişməz çempionu avrokuboklarda istənilən komanda üçün arzuolunmaz rəqibdir. "Dinamo" böyük tarixə, Avropa yarışları ənənəsinə malik, həmişə sona qədər yarışan, təslim olmayan komandadır, heyətində də təhlükəli oyunçular var. Mən bu püşkü uğurlu saymıram. Çətin olacaq. Amma bu tək bizim yox, onlar üçün də çətin olacaq. Ancaq gəlin, tələsməyək. Əvvəlcə "Ludoqorets" keçilməlidir. Çünki bolqarlar da sıradan rəqib deyillər. Mənə görə bu cütdə favorit məhz bizik. "Qarabağ" öz oyununu oynaya bilsə, turu keçən tərəf məhz biz olacağıq. İlk oyunun evdə olması da yaxşıdır, çünki rəqibin zəif-güclü tərəflərini öz azarkeşlərimiz qarşısında öyrənə, səhvləri minimallaşdıra biləcəyik".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Qanunsuz parklanma yerlərini təşkil edən 160-a yaxın şəxs saxlanılıb



**Dəfələrlə edilən xəbərdarlıqlara baxmayaraq Bakı şəhərində qanunsuz parklanma yerlərini təşkil edən şəxslər müəyyən olunaraq tədbirlər görülüb, qanunsuz fəaliyyətin qarşısı alınıb.**

Bu barədə APA-ya DİN-dən məlumat verilib.

Qanunsuz parklanma yerlərini təşkil edən, yaxud həmin xidmətlə bağlı ödəniş tələb edən şəxslərə qarşı polis əməkdaşları tərəfindən son iki gün ərzində paytaxtın müxtəlif ərazilərində 216 nöqtədə həyata keçirilən monitorinqlər və profilaktik tədbirlər zamanı bu qeyri-qanuni hallara yol verən 159 şəxs müəyyən olunaraq saxlanılıblar. Onlar barəsində qanunla nəzərdə tutulan qaydada tədbirlər görülüb.

Qeyd edək ki, dövlət avtomobil yollarında səlahiyyəti olmayan şəxslər tərəfindən parklanma yerlərinin təşkili, parklanma xidmətinin göstərilməsi, yaxud həmin xidmətlə bağlı ödənişin tələb edilməsinə görə fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilirlər.

İşin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda on beş günədək müddətə inzibati həbs tətbiq olunması da nəzərdə tutulub.

Göstərilən qanun pozuntusuna yol verən hüquqi şəxslər isə min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə olunurlar.



# Bölgələrdə yağış yağacaq, çaylardan sel keçəcək

**Azərbaycanın rayonlarında avqustun 6-da gündüz və 7-si gündüzdən 8-i axşamadək əsasən dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir.**

APA xəbər verir ki, bu barədə Milli Hidrometeorologiya Xidməti məlumat yayıb.

Bildirilib ki, qısamüddətli (Daşkəsən-Gədəbəy, Qarabağ və Şərqi Zəngəzur, Qazax-Gəncə, Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan) leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var.

Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimalı var.

YENİ MÜSAVAT
Son səhifə
N 137 (8510) 6 avqust 2024

## Bunları bilirsinizmi?



* Əgər sizin gözəlliyiniz varsa, Panamada sizə 20% endirim eləyərlər.
* Heç bir kağız parçası 7 dəfədən artıq bükülə bilmir.
* Atların insanlardan 18 ədəd daha çox sümüyü var.
* Bir qarışqa öz ağırlığının 50 qatını qaldıra bilər.
* Pişiklər ultrason səslərini eşidə bilirlər.
* Bu günə qədər bilinən ən ağır böyrək daşının çəkisi 1.36 kq-dır.
* Dünyanın ən böyük şəkər istehsalçısı Kubadır.
* Dünyanın ən tez böyüyən bitkisi bambudur, bir gündə təxminən 90 sm boy atır.
* Bir insanın üzünü xatırlamaq üçün insan beyninin sağ tərəfi işlədilir.
* Rusiyanın dörddə biri meşəliklə örtülüdür.
* Ortalama olaraq, Amerikada gündə üç ədəd cinsiyyət dəyişdirmə əməliyyatı reallaşmaqdadır.
* İnsan beyninin 80%-i sudur.
* Amerikada hər saat 40 adam xərçəngdən həyatını itirir.
* İrəli doğru bir addım atıldığında, insan bədənindəki 54 əzələ çalışır.
* İnsan beyninin ortalama ağırlığı 1.3 kq-dır.
* Yetkin bir insan gündə ortalama olaraq 23 min dəfə nəfəs alar.
* Qaşları yuxarı qaldırmaq üçün 30 əzələni hərəkətə keçirmək lazımdır.
* Kişilər qadınlara görə on qat daha çox rəng koru olurlar.
* Uşaqlar baharda daha çox böyüyür.



## Bu qidalar baş, boyun və ağız xərçənginə səbəb olur

**Çox miqdarda metionin amin turşusu ehtiva edən qidaların zərərli olduğu üzə çıxıb.**

Bu qidaların çətin müalicə olunan baş və boyun xərçənginə səbəb olduğu bildirilir.

Cənubi Kaliforniya Universitetinin alimləri amin turşusu metioninlə zəngin olan qidaların, həmçinin ağız və tənəffüs orqanları xərçənginin inkişafına səbəb ola biləcəyini sübuta yetiriblər.

Tədqiqatın nəticələri "Proceedings of the National Academy of Sciences" jurnalında dərc olunub.

Bildirilir ki, aerodiqestiv skuamöz hüceyrəli karsinoma hər il yarım milyondan çox insana təsir edən baş, boyun və tənəffüs yollarının ümumi, aqressiv bədxassəli şişidir. Bu xərçəng növü çox yayılmasına baxmayaraq, onun effektiv müalicə variantları azdır.

Alimlər aşkar ediblər ki, metionin digər xərçəng növləri ilə müqayisədə ağız xərçəngində yüksək konsentrasiyalarda mövcuddur.

Metionin insanların krevetka, yumurta və mal əti də daxil olmaqla, bır sıra qidalardan aldığı amin turşusudur.

Tədqiqat zamanı metionini hüceyrələrə daşıyan membran zülalı olan LAT1 daşıyıcısı bloklanıb və bu, şiş böyüməsinin yavaşlamasına səbəb olub.

Heyvanlarla aparılan təcrübələr göstərib ki, metioninin az olduğu pəhriz adi pəhrizlə müqayisədə şişlərin böyüməsini yarıya qədər azaldır.

Bu pəhriz effektiv ola bilər, çünki xərçəng hüceyrələri metionindən daha çox asılıdır, normal hüceyrələr isə onun çatışmazlığına daha az həssasdır.

Gələcək klinik sınaqlarda ağız xərçəngi olan xəstələr üçün aşağı metioninli pəhrizdən istifadənin effektivliyi araşdırılacaq.

# Ağcaqanad əleyhinə spreylər sağlamlığımıza zərərlidirmi?



**İnsanlar ağcaqanadları və digər həşəratları karbon qazı və dəri qoxusu ilə cəlb edir.**

Spreylər, rulonlar, diffuzorları düzgün istifadə edildikdə, repellentlər insan sağlamlığı üçün təhlükəsiz sayılır. Həşəratlar spreylərin tərkibindəki maddələri sevmir, ona görə də yaxından uçmur və dişləmirlər.

Repelentlər müxtəlif formalarda olur. Dəriyə spreylər və kremlər tətbiq olunur və bəzən "fumiqantlar" adlanan məkan repellentləri qızdırılır və havaya yayılır. Bu məhsullar şamlar, spirallər və elektrik diffuzorları şəklində satılır. Məkan repellentlərinə adətən metoflutrin, transflutrin, terpenoidlər və 1-metilpiperazin daxildir. Bu birləşmələr insanlar üçün təhlükəsiz sayılır, lakin onların uzunmüddətli sağlamlıq təsirləri yaxşı başa düşülmür. Məsələn, bir il ərzində hər gecə elektrik diffuzorundan istifadənin sağlamlığa zərərli olub-olmaması məlum deyil, çünki mövcud tədqiqatlar əsasən heyvanlar üzərində aparılıb.

Əgər siz repellentlərin tərkibindəki aktiv maddələrin təsirindən narahatsınızsa və ya onların kəskin qoxusundan baş ağrınız varsa, düzgün istifadə etdiyinizə əmin olmalısınız.

# Makaronu pendir və ketçupla yeməyin, yoxsa...



**Bəzi sevimli yeməklər daha az yeyilməlidir. Mütəxəssislər pendir və ketçuplu makarondan imtina etməyin yollarını açıqlayıblar.**

Makaronda nişastalı karbohidratlar, ketçupda isə pomidor turşusu var. Bu birləşmə mədəmiz üçün çətin həzm olunur.

Səbəb qlükoza tədarükünə cavab olaraq insulinin intensiv istehsalı və qan şəkərinin səviyyəsinin artmasıdır. Pendirli makaron dadlı və olduqca populyar bir yeməkdir, ancaq yenə də uzaq durmaq lazımdır.

Makaron, zülaldan fərqli bir həzim müddətinə malik olan nişastalar baxımından zəngindir. Bu səbəbdən bu gecikmə halı qıcqırma və həzm problemlərinə gətirib çıxarar. Makaron və ət üçün də eyni şey aiddir.

Qidalanmaq üçün sadəcə bir protein mənbəyi seçin. Ancaq eyni boşqaba çoxlu zülal qoymaqdan uzaq durmalısınız.

## Hansı ölkələrdə daha çox tənha, işləyən qadınlar var?

**4 avqust Tənha İşləyən Qadınlar Günüdür.**

2006-cı ildə ABŞ-da icad edilən qeyri-rəsmi bayram bu təbəqənin cəmiyyətdə oynadığı mühüm rolu vurğulamaq məqsədi daşıyır.

ABŞ-ın "Wells Fargo" bankının araşdırmasına görə, son on ildə işləyən subay qadınların sayı ölkədəki işçi qüvvəsinin ümumi artımından üç dəfə sürətlə artıb. Buna baxmayaraq, sözügedən göstərici üzrə lider ölkələr İsveçrə və Avstriyadır. Burada subay qadınların üçdə iki hissəsindən çoxu işləyir. Rusiyada subay qadınların yarısından azı çalışır. Beynəlxalq Əmək Təşkilatının məlumatına görə, subay kişilərlə subay xanımların maaş fərqi hələ də mövcuddur. Heç vaxt evlənməmiş qadınların orta sərvəti kişilərinkindən 29% azdır.

## Yer kürəsində maqnit qasırğası güclənib

**Yer kürəsində maqnit qasırğası G3 (güclü) səviyyəsinədək artıb. Bu barədə Rusiyanın Tətbiqi Geofizika İnstitutundan məlumat verilib. "G3 (Kp = 6.67) artıq altı saat ərzində qeydə alınıb", - institutun nümayəndəsi bildirib. Bundan əvvəl "Fobos" iqlim araşdırmaları mərkəzinin aparıcı mütəxəssisi Mixail Leus Yer kürəsində G1 sinifli (zəif səviyyə) maqnit qasırğasının başladığını bildirmişdi.**

## "Milan" qadın futbolçuları ana olmağa həvəsləndirir

**İtaliyanın "Milan" klubu qadın futbolçular və digər əməkdaşları üçün güzəştlər elan edib.**

Bundan sonra klubun qadın üzvləri əmək müqavilələrinin son ilində hamilə qaldıqda onların müqavilələri avtomatik olaraq uzadılacaq. Bununla yanaşı, komanda xanımların uşaq baxımı ilə bağlı xərclərini də qarşılayacaq.

## Alzheimer xəstəliyinin yeni əlamətləri müəyyən edildi



**Çinin Fudan Universitetinin tədqiqatçıları alzheimer xəstəliyinin və demensiyanın yeni əlamətlərini müəyyən ediblər. Bu əlamətlər onurğa-beyin mayesində protein biomarkerləri ilə aşkarlana bilir. Araşdırmanın nəticələri "Nature Human Behavior" jurnalında dərc olunub.**

Təhlildə serebrospinal mayedə (CSF) çoxsaylı zülalların eyni vaxtda ölçülməsinə imkan verən və zülal səviyyələrində incə dəyişiklikləri aşkar edən multipleks proteomikadan istifadə edilib. Alzheimer xəstəliyi diaqnozu qoyulmuş xəstələrdən və koqnitiv problemləri olmayan insanlardan alınan CSF nümunələrinin təhlili iltihab, neyron zədələnməsi və digər pozğunluqlar da daxil olmaqla patoloji proseslərlə əlaqəli zülalları müəyyən edib.

Ən diqqətəlayiq kəşf, alzheimer xəstəliyinin diaqnozunda yüksək dəqiqliyi təmin edən CSF biomarker YWHAG idi. Dörd (YWHAG, SMOC1, PIGR və TMOD2) və beş (ACHE, YWHAG, PCSK1, MMP10 və IRF1) biomarker üçün testlər müvafiq olaraq 0,987 və 0,975-ə qədər dəqiqliyi əhəmiyyətli dərəcədə artırıb.

Müəyyən edilmiş biomarkerlərin effektivliyini qiymətləndirmək üçün əlavə araşdırmalar aparılıb.

Nəticələr təsdiqlədi ki, yeni biomarkerlər mövcud olanlardan üstündür və alzheimer xəstəliyi nümunələrini digər nümunələrdən ayırmağa, həmçinin demensiyaya doğru klinik gedişatı proqnozlaşdırmağa kömək edir.

Gələcəkdə tədqiqatçılar tədqiqatlarını daha çox insan üzərində təkrarlamağı, biomarkerləri təkmilləşdirməyi və klinik istifadə üçün standartlaşdırılmış diaqnostik testlər hazırlamağı planlaşdırırlar.

**Səhifəni hazırladı: SELCAN**

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 1.500